37 nömrəli



MÜLKİ VƏ SİYASİ HÜQUQLAR HAQQINDA BEYNƏLXALQ PAKTIN

# DİNC TOPLAŞMAQ HÜQUQU HAQQINDA 37 NÖMRƏLİ ÜMUMİ ŞƏRHİ

Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi hesabına Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən tərcümə edilərək dərc olunmuşdur. Bu nəşrin müəllifi Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığıdır. Bu nəşrdə istifadə olunan məzmun və material heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.

**Avropa İttifaqı tərəfindən maliyyələşdirilir**

UNITED NATIONS
HUMAN RIGHTS
OFFICE OF THE HIGH COMMISSIONER

# İnsan Hüquqları

## Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın dinc toplaşmaq hüququ haqqında 37 nömrəli Ümumi Şərhi

Birləşmiş Millətlər Təşkilatı
CCPR/C/GC/37

Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt

Paylanma.: Ümumi
17 sentyabr 2020-ci il
Əsli:İngilis dili
Qeyri-rəsmi tərcümə

# İnsan Hüquqları üzrə Komitə: Dinc toplaşmaq hüququ (maddə 21) haqqında 37 (2020) nömrəli ümumi şərh*

## I. Giriş

1. Əsas insan hüquqlarından biri olan dinc toplaşmaq hüququ şəxslərə özlərini kollektiv şəkildə ifadə etmək və öz cəmiyyətlərinin formalaşdırılmasında iştirak etmək imkanı verir. Dinc toplaşmaq hüququ ayrılıqda götürdükdə də vacibdir, çünki insanların başqaları ilə həmrəylik şəraitində fərdi müstəqilliyini həyata keçirmək imkanını müdafiə edir. Bu hüquq digər əlaqəli hüquqlarla birlikdə, demokratiya, insan hüquqları, qanunun aliliyi və plüralizmə əsaslanan, iştirakçılığı ehtiva edən idarəçilik sisteminin təməlini təşkil edir. Dinc toplantılar iştirakçılara ictimai şəkildə ideya və məqsədlərini irəli sürmək və bu ideya və məqsədlərə dəstəyin və ya müqavimətin dərəcəsini müəyyən etmək imkanının verilməsi baxımından olduqca mühüm rol oynaya bilər. Dinc toplantılar narazılıqları ifadə etmək üçün istifadə edildikdə, fikir ayrılıqlarının inklüziv, birgə və dinc həlli üçün imkanlar yarada bilər.

2. Bundan əlavə, dinc toplaşmaq hüququ geniş spektrli digər hüquqları, o cümlədən iqtisadi, sosial və mədəni hüquqları qəbul etmək və həyata keçirmək üçün istifadə edilə bilər və edilmişdir. Bu hüquq təcrid olunmuş fərdlər və qruplar üçün xüsusi əhəmiyyət daşıyır. Dinc toplaşmaq hüququna hörmət edilməməsi və onun təmin edilməməsi repressiyanın səciyyəvi göstəricilərindən biridir.

3. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 21-ci maddəsinin birinci cümləsi aşağıdakı kimidir: "Dinc toplantılar keçirmək hüququ qəbul edilir." Bu hüquq digər beynəlxalq və regional sənədlərdəki bənzər terminlərlə ifadə edilir[1] və onun məzmunu monitorinq orqanları tərəfindən (məsələn, onların rəylərində, yekun müşahidələrində, qətnamələrində, şərh xarakterli təlimatlarında və məhkəmə qərarlarında) dəqiqləşdirilmişdir.[2] Dinc toplaşmaq hüququnu beynəlxalq hüquqa əsasən qəbul etmək öhdəliyindən əlavə, iştirakçı dövlətlərin əksəriyyəti bu hüququ öz milli konstitusiyalarında da qəbul edirlər.[3]

4. Dinc toplaşmaq hüququ şəxslər tərəfindən konkret məqsədlərlə, xüsusilə fikirlərin ifadə edilməsi məqsədləri üçün keçirilən qeyri-zorakı toplantıları qoruyur.[4] O, kollektiv şəkildə icra olunan fərdi hüquqdur.[5]

---

* Komitənin 129-cu sessiyasında (29 iyun- 24 iyul 2020-ci il) qəbul edilmişdir.

[1] Məsələn, İnsan hüquqları haqqında Ümumi Bəyannamə (maddə 20(1)); "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiya (Avropa İnsan Hüquqları Konvensiyası) (maddə 11); "İnsan hüquqları haqqında" Amerika Konvensiyası (maddə 15); "İnsan hüquqları və xalqların hüquqları haqqında" Afrika Xartiyası (maddə 11). "İnsan hüquqları haqqında" Ərəb Xartiyası vətəndaşlar üçün bu hüququ qoruyur (maddə 24). Dinc toplantılarda iştiraka dair xüsusi öhdəliklər "Uşaq hüquqları haqqında" Konvensiyada (maddə 15), "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında" Beynəlxalq Paktda (maddə 5 (d) (ix)) və "Uşaq hüquqları və rifahı haqqında" Afrika Xartiyasında (maddə 8) da yer alır.

[2] Regional mexanizmlərə dair nümunələr üçün baxın: Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və Hüquq vasitəsilə Demokratiya uğrunda Avropa Komissiyası (Venesiya Komissiyası), *"Dinc toplaşmaq azadlığı üzrə Rəhbər Qaydalar"*, 3-cü nəşr. (Varşava / Strasburq, 2019); İnsan Hüquqları və Xalqların Hüquqları üzrə Afrika Komissiyası, "*Afrikada birləşmək və sərbəst toplaşmaq azadlığı üzrə Rəhbər Qaydalar*" (Banjul, 2017) və "*Afrikada hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən toplantılara polis nəzarətinə dair Rəhbər Qaydalar*" (Banjul, 2017); və İnsan Hüquqları üzrə Amerikalararası Komissiya, İfadə Azadlığı üzrə Xüsusi Məruzəçinin Ofisi *"Etiraz və insan hüquqları: sosial etirazla bağlı hüquqlara və Dövlətin cavabı ilə bağlı öhdəliklərə dair standartlar"* (2019).

[3] BMT-nin 193 üzv dövlətindən 184-ü öz konstitusiyasında dinc toplaşmaq hüququnu qəbul edir. Bax: www.rightofassembly.info.

[4] *Kivenmaa Finlandiyaya qarşı* (CCPR/C/50/D/412/1990), bənd 7.6; *Sekerko Belarusa qarşı* (CCPR/C/109/D/1851/2008), bənd 9.3; və *Poplavny və Sudalenko Belarusa qarşı* (CCPR/C/118/D/2139/2012), bənd 8.5.

[5] "Paktda iştirak edən dövlətlərə qoyulan ümumi hüquqi öhdəliyin xarakteri haqqında" 31 (2004) nömrəli Ümumi Şərh, bənd 9.

Buna görə də, assosiativ element bu hüququn ayrılmaz hissəsini təşkil edir.

5. Vətəndaşlar və qeyri-vətəndaşlar daxil olmaqla hər kəs bərabər səviyyədə dinc toplaşmaq hüququna malikdir. Bu hüquq, məsələn, xarici vətəndaşlar,[6] miqrantlar (sənədli və ya sənədsiz),[7] sığınacaq axtaranlar, qaçqınlar[8] və vətəndaşlığı olmayan şəxslər tərəfindən həyata keçirilə bilər.

6. Paktın 21-ci maddəsi dinc toplantıların harada keçirilməsindən asılı olmayaraq, onları qoruyur: açıq hava altında, qapalı mühitdə və onlayn şəkildə; ictimai və xüsusi məkanlarda; yaxud qarışıq şəkildə. Bu cür toplantılar bir çox formalarda ola bilər. Buraya nümayişlər, etirazlar, mitinqlər, keçidlər, yürüşlər, oturaq aksiya, şam işığı ayıqlığı və fleş-moblar daxildir. Onlar 21-ci maddə çərçivəsində qorunur və hərəkətsiz (məsələn, piketlər) və ya hərəkətli (məsələn, keçidlər və ya yürüşlər) formada baş verə bilər.

7. Bir çox hallarda dinc toplantılar mübahisəli məqsədlərlə keçirilmir və nadir hallarda gündəlik həyata maneələr yaradır və ya ümumiyyətlə yaratmır. Həqiqətən də, məqsəd məsələn, milli anım günü keçirmək və ya idman tədbirinin nəticəsini qeyd etmək ola bilər. Bununla belə, dinc toplantılar bəzən mübahisəli ideya və ya məqsədlərlə keçirilə bilər. Onların miqyası və ya xarakteri gündəlik həyatda maneələrə, məsələn, nəqliyyatın və ya piyadaların hərəkətinin və ya iqtisadi fəaliyyətin pozulmasına səbəb ola bilər.[9] Məqsədli və ya məqsədsiz olmasından asılı olmayaraq, bu nəticələr bu cür toplantıların müdafiəsi ilə bağlı təminatı mübahisələndirmir. Hadisənin bu cür maneələrə və ya risklərə nə dərəcədə səbəb ola biləcəyini nəzərə alaraq, bunlar Pakt çərçivəsində tənzimlənməlidir.

8. Dinc toplaşmaq hüququnun qəbul edilməsi iştirakçı dövlətlərin üzərinə müvafiq olaraq, bu hüquqa hörmət etmək və heç bir ayrı-seçkiliyə yol

---

[6] "Pakt çərçivəsində əcnəbilərin mövqeyi haqqında" 15 (1986) nömrəli Ümumi Şərh, bəndlər 1–2; və CCPR/C/KWT/CO/3, bənd 42.
[7] CCPR/C/DOM/CO/6, bənd 32.
[8] CCPR/C/NPL/CO/2, bənd 14.
[9] CCPR/C/KOR/Q/4, bənd 26.

vermədən onun həyata keçirilməsini təmin etmək öhdəliyi qoyur.[10] Bu, iştirakçı dövlətlərdən əsassız müdaxilə etmədən bu cür toplantıların baş verməsinə imkan verməyi, bu hüququn icrasına dəstək göstərməyi və iştirakçıları qorumağı tələb edir. 21-ci maddənin ikinci cümləsi potensial məhdudiyyətlər üçün əsasları müəyyən edir, lakin bu cür məhdudiyyətlər dar çərçivədə müəyyən edilməlidir. Məhdudiyyətlərin praktikada tətbiqinə dair hədlər mövcuddur.

9. Dinc toplaşmaq hüququnun tam qorunması yalnız o zaman mümkün olur ki, tez-tez kəsişən digər hüquqlar da qorunur. Buraya xüsusilə ifadə azadlığı, birləşmək azadlığı və siyasi iştirak daxildir.[11] Dinc toplaşmaq hüququnun qorunması çox vaxt həm də daha geniş spektrli mülki və siyasi hüquqların və iqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsindən asılı olur. Fərdlərin davranışı onları 21-ci maddədə təminat verilən müdafiənin əhatə dairəsindən çıxarırsa (məsələn, zorakı davranışları səbəbilə), onların tətbiq olunan məhdudiyyət və hədlər çərçivəsində Paktda nəzərdə tutulan digər hüquqları saxlanılır.

10. Toplantıların keçirilmə tərzi və konteksti zaman keçdikcə dəyişir. Bu, öz növbəsində hakimiyyətin onlara necə yanaşmasına təsir edə bilər. Məsələn, yeni rabitə texnologiyalarının tam və ya qismən onlayn toplaşmağa imkan yaratdığını və fiziki yığıncaqların təşkili, onlarda iştirak və onların monitorinqində çox zaman ayrılmaz rol oynadığını nəzərə alaraq, bu rabitə texnologiyalarına müdaxilə toplantılara əngəl törədə bilər. Müşahidə texnologiyaları zorakılıq təhlükələrini aşkar etmək və bununla da əhalini qorumaq üçün istifadə edilə bilsə də, iştirakçıların və kənarda duranların şəxsi həyatın toxunulmazlığı hüququnu və digər hüquqlarını poza və çəkindirici təsir göstərə bilər. Bundan əlavə, ictimaiyyət üçün açıq olan məkanlar və əlaqə platformaları üzərində xüsusi mülkiyyət və digər nəzarət formaları artmışdır. Bu cür mülahizələr 21-ci maddənin tələb etdiyi qanunvericilik bazasının müasir anlayışının əsasını təşkil etməlidir.

---

[10] Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, maddə 2 (1).
[11] A/HRC/39/28, bənd 14.

## II. Dinc toplaşmaq hüququnun tətbiq dairəsi

11. Şəxsin toplantıda iştirakının 21-ci maddə çərçivəsində qorunub-qorunmamasının müəyyənləşdirilməsi iki mərhələli prosesdən ibarətdir. Birincisi, sual altında olan şəxsin davranışının bu hüququn təmin etdiyi müdafiənin əhatə dairəsinə düşüb-düşmədiyi, yəni bunun "dinc toplantı"da iştiraka bərabər olub-olmadığı müəyyən edilməlidir (bu bölmədə təsvir olunduğu kimi). Əgər düşürsə, dövlət iştirakçıların hüquqlarına hörmət etməli və onları təmin etməlidir (aşağıdakı III bölmədə təsvir edildiyi kimi). İkincisi, bu hüququnun həyata keçirilməsinə hər hansı məhdudiyyətlərin tətbiqinin həmin kontekstdə qanuni olub-olmadığı müəyyən edilməlidir (aşağıdakı IV bölmədə təsvir edildiyi kimi).

12. "Toplantı"da iştirak etmək dedikdə, şəxslərin özünü ifadə etmək, müəyyən məsələ barədə mövqe bildirmək və ya fikir mübadiləsi aparmaq kimi məqsədlərlə toplanmasının təşkil edilməsi və ya orada iştirak etmək nəzərdə tutulur. Toplantı həmçinin qrup həmrəyliyi və ya kimliyini iddia etmək və ya təsdiq etmək məqsədini də daşıya bilər. Toplantılar bu kimi məqsədlərdən əlavə, digər məqsədlərlə, məsələn, əyləncə məqsədilə keçirilə, mədəni, dini və ya kommersiya məqsədi daşıya bilər və bu zaman da onlar 21-ci maddə çərçivəsində qorunacaqdır.

13. Toplantı anlayışı birdən artıq iştirakçının olacağını ehtiva etsə də,[12] tək bir etirazçı Pakt çərçivəsində (məsələn, 19-cu maddə) oxşar müdafiə təminatlarından yararlanır. Dinc toplaşmaq hüququnun həyata keçirilməsi adətən şəxslərin fiziki olaraq bir yerə toplanması kimi başa düşülsə də, 21-ci maddədə nəzərdə tutulan müdafiə məsələn, onlayn formada toplantılarda distant iştirak və onların təşkilinə də şamil edilir.[13]

14. Dinc toplantılar çox zaman qabaqcadan hazırlanır ki, bu da təşkilatçıların hakimiyyəti zəruri hazırlıq işlərinin görülməsi üçün məlumatlandırmasına vaxt qalmasına imkan verir. Bununla belə, adətən cari hadisələrə birbaşa cavab olaraq keçirilən planlaşdırılmamış toplantılar da əlaqələndirilib-əlaqələndirilməməsindən asılı olmayaraq, 21-ci maddə

[12] *Coleman Avstraliyaya qarşı* (CCPR/C/87/D/1157/2003), bənd 6.4.
[13] Bax A/HRC/41/41.

çərçivəsində qorunur. Əks nümayişlər o zaman keçirilir ki, bir toplantı qarşı tərəfə əks mövqeyini ifadə etmək üçün keçirilir. Hər iki toplantı 21-ci maddədə nəzərdə tutulan müdafiənin tətbiq dairəsinə düşür.

15. "Dinc" toplantı geniş yayılan və ciddi zorakılıqla səciyyələndirilən toplantı ilə ziddiyyət təşkil edir. Buna görə də, bu kontekstdə "dinc" və "qeyri-zorakı" terminləri bir-birini əvəz edərək işlənir. Ümumilikdə, dinc toplaşmaq hüququ zorakılıqdan istifadə edərək həyata keçirilə bilməz. 21-ci maddənin kontekstində "zorakılıq" dedikdə, başqalarına qarşı xəsarət və ya ölümlə və ya mülkiyyətə ciddi zərər vurulması ilə nəticələnə biləcək fiziki gücdən istifadə nəzərdə tutulur.[14] Sadəcə itələmək, yaxud nəqliyyat vasitələrinin və ya piyadaların hərəkətinə və ya gündəlik fəaliyyətlərə maneə yaratmaq "zorakılığa" bərabər tutulmur.

16. Toplantıda iştirakçılar dinc davranış nümayiş etdirirsə, toplantının təşkilatçıları və ya iştirakçılarının toplantı ilə bağlı müəyyən daxili hüquqi tələbləri yerinə yetirib-yetirməməsi özlüyündə iştirakçıları 21-ci maddədə nəzərdə tutulan müdafiənin tətbiq dairəsindən kənarlaşdırmır.[15] Kollektiv vətəndaş itaətsizliyi və ya "birbaşa hərəkət" aksiyaları 21-ci maddənin əhatə dairəsinə düşə bilər, o şərtlə ki, onlar qeyri-zorakı xarakterlidir.[16]

17. Dinc və qeyri-dinc toplantılar arasında konkret sərhəd çəkmək hər zaman mümkün olmasa da, toplantıların dinc olmasının lehinə prezumpsiya mövcuddur.[17] Bundan əlavə, bəzi iştirakçıların fərdi zorakılıq əməlləri digərlərinə, təşkilatçılara və ya toplantıya aid edilməməlidir.[18] Beləliklə, toplantının bəzi iştirakçılarının 21-ci maddənin əhatə dairəsinə düşməsi, eyni toplantının digər iştirakçılarının isə düşməməsi mümkündür.

---

[14] ATƏT və Venesiya Komissiyası, *Dinc toplaşmaq azadlığı haqqında Rəhbər Qaydalar*, bənd.51.

[15] Avropa İnsan Hüquqları Məhkəməsi, *Frumkin Rusiyaya qarşı* (ərizə № 74568/12), 5 yanvar 2016-cı il tarixli qərar, bənd 97.

[16] CCPR/C/CHN-MAC/CO/1, bənd 16.

[17] A/HRC/31/66, bənd 18.

[18] Amerikalararası İnsan Hüquqları Məhkəməsi, *Atenkoda cinsi işgəncənin qadın qurbanları Meksikaya qarşı*, 28 noyabr 2018-ci il tarixli qərar, seriya C, № 371, bənd 175; və Avropa İnsan Hüquqları Məhkəməsi, *Frumkin Rusiyaya qarşı*, bənd 99.

18. Toplantının dinc olub-olmaması məsələsi zorakılığın iştirakçılardan qaynaqlanıb-qaynaqlanmamasına istinad etməklə cavablandırılmalıdır. Dinc toplantıda hakimiyyət tərəfindən və ya onların adından hərəkət edən təxribatçı agentlər tərəfindən iştirakçılara qarşı törədilən zorakılıq toplantını qeyri-dinc toplantıya çevirmir. Bu, cəmiyyətin üzvləri tərəfindən toplantıya qarşı törədilən zorakılığa və ya əks-nümayişlərin iştirakçıları tərəfindən törədilən zorakılığa da aid edilir.

19. Müəyyən iştirakçıların toplantıdakı davranışı o zaman zorakı hesab edilə bilər ki, hakimiyyət həmin iştirakçıların hadisədən əvvəl və ya hadisə müddətində digərlərini zorakılığa təhrik etdiyinə və bu cür hərəkətlərin zorakılığa səbəb ola biləcəyinə, iştirakçıların zorakılıq niyyətlərinin olduğuna və bu niyyətlər əsasında hərəkət etməyi planlaşdırdığına, yaxud onlar tərəfindən zorakılığın törədilməsinin qaçılmaz olduğuna dair etibarlı dəlillər təqdim edə bilir.[19] Pərakəndə şəkildə törədilən bu cür əməllər bütün toplantını qeyri-dinc toplantı hesab etmək üçün kifayət etmir, lakin bu, toplantıda açıq şəkildə geniş yayılarsa, toplantıda iştirak artıq 21-ci maddə çərçivəsində qorunmur.

20. İştirakçıların silah olan və ya silah hesab edilə biləcək əşyalar və ya qaz maskası və dəbilqə kimi qoruyucu vasitələr daşıması həmin iştirakçıların davranışını zorakı hesab etmək üçün heç də hər zaman yetərli deyildir. Bu, silahların (xüsusilə odlu silahların) daşınması ilə bağlı daxili qanunvericilik, yerli mədəni təcrübələr, zorakılıq niyyətinin olduğuna dair dəlilin olub-olmaması və bu cür əşyaların mövcudluğunun yaratdığı zorakılıq riski və digər amillərdən asılı olaraq, hər iş üzrə ayrılıqda müəyyən edilməlidir.

## III. İştirakçı dövlətlərin dinc toplaşmaq hüququna dair öhdəliyi

21. Pakt, iştirakçı dövlətlərin üzərinə Paktdakı bütün "hüquqlara hörmət etmək və onları təmin etmək" (maddə 2(1)), bu məqsədə nail olmaq üçün hüquqi və digər tədbirləri görmək (maddə 2(2)), Paktda nəzərdə tutulan

[19] Ayrı-seçkiliyə, düşmənçiliyə və ya zorakılığa təhriki təşkil edən milli, irqi və ya dini nifrətin təşviqinin qadağan olunmasına dair Rabat Fəaliyyət Planı (A/HRC/22/17/Add.4, əlavə), bənd 29 (f).

hüquqların pozulmasına görə məsuliyyətə cəlb etmək və səmərəli hüquqi müdafiə vasitələri təmin etmək (maddə 2(3)) öhdəliyi qoyur.[20] Beləliklə, iştirakçı dövlətlərin dinc toplaşmaq hüququna dair öhdəliyi bu müxtəlif elementlərdən ibarətdir, lakin bu hüquq bəzi hallarda 21-ci maddədə sadalanan meyarlara uyğun olaraq məhdudlaşdırıla bilər.

22. Dövlətlər toplantının məqsədini və nəyi ifadə etmək istədiklərini sərbəst surətdə müəyyən etməyi iştirakçıların ixtiyarına buraxmalıdır. Beləliklə, hakimiyyətin dinc toplantılara yanaşması və tətbiq olunan hər hansı məhdudiyyətlər məzmunca neytral olmalı,[21] iştirakçıların kimliyinə və ya onların hakimiyyətlə münasibətlərinə əsaslanmamalıdır. Bundan əlavə, toplantıların vaxtı, yeri və forması bəzi hallarda 21-ci maddə çərçivəsində qanuni məhdudiyyətlərə məruz qala bilsə də, toplantıların adətən ifadəedici xarakterini nəzərə alaraq, iştirakçılara öz hədəf auditoriyalarının görə və eşidə bildiyi şəraitdə toplantı keçirmək imkanı yaradılmalıdır.[22]

23. Dinc toplantıların keçirilməsinə hörmət etmək və onları təmin etmək öhdəliyi Dövlətin üzərinə toplantılardan əvvəl, toplantılar zamanı və onlardan sonra neqativ və pozitiv vəzifələr qoyur. Neqativ vəzifə ondan ibarətdir ki, dinc toplantılara əsassız müdaxiləyə yol verilməməlidir. Dövlətlər inandırıcı əsaslandırma olmadan dinc toplantıları qadağan etməməli, məhdudlaşdırmamalı, qarşısını kəsməməli, dağıtmamalı və ya pozmamalı, habelə qanuni əsas olmadan iştirakçılara və ya təşkilatçılara sanksiya tətbiq etməməlidir.

24. Bundan əlavə, İştirakçı dövlətlər dinc toplantıların keçirilməsinə köməkliyin göstərilməsi və iştirakçıların öz məqsədlərinə nail olmasına şəraitin yaradılması kimi pozitiv vəzifələr daşıyırlar.[23] Beləliklə, dövlətlər

[20] Həmçinin bax: Ümumi Şərh № 31.

[21] *Alekseev Rusiya Federasiyasına qarşı* (CCPR/C/109/D/1873/2009), bənd 9.6. Həmçinin bax: *Amelkovich Belarusa qarşı* (CCPR/C/125/D/2720/2016), bənd 6.6; və CCPR/C/GNQ/CO/1, bəndlər 54–55.

[22] *Strizhak Belarusa qarşı* (CCPR/C/124/D/2260/2013), bənd 6.5.

[23] Komitə, *"Turçenyak və digərləri Belarusa qarşı"* (CCPR/C/108/D/1948/2010 və Corr.1) işində öz Baxışlarını dərc edəndən bəri, tez-tez təkrar etmişdir ki, Dövlətlər tərəfindən toplantıya cavab olaraq atılan addımlar "bu hüquqa şərait yaratmaq məqsədini rəhbər tutmalıdır" (bənd

heç bir ayrı-seçkiliyə yol vermədən dinc toplaşmaq hüququnun həyata keçirilməsi üçün əlverişli mühiti təşviq etməli və bu hüququn həyata keçirilə biləcəyi hüquqi və institusional çərçivə qəbul etməlidir. Bəzən hakimiyyət tərəfindən spesifik tədbirlərin görülməsi tələb oluna bilər. Məsələn, onlar qapalı küçələri aça, nəqliyyatın hərəkətini başqa istiqamətə yönləndirə və ya mühafizə təmin edə bilər. Zərurət olduqda, dövlət həmçinin iştirakçıları dövləti təmsil etməyən tərəflər tərəfindən törədilə biləcək mümkün zorakılıqdan, məsələn, cəmiyyətin digər üzvləri,[24] qarşı tərəf nümayişçilər və özəl mühafizə xidməti işçiləri tərəfindən törədiləcək müdaxilə və ya zorakılıqdan qorumalıdır.

25. Dövlət qanunların və onların təfsir və tətbiqinin dinc toplaşmaq hüququnun həyata keçirilməsində irq, dərinin rəngi, milliyyət, yaş, cins, dil, mülkiyyət, din və ya inanc, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, doğum vəziyyəti, milli azlıqlara mənsubluq, yerli xalqlara mənsubluq və ya digər statusu, əlillik, cinsi oriyentasiya və ya gender kimliyi və ya digər əlamətlər kimi əsaslarla ayrı-seçkiliyə yol verilməsi ilə nəticələnməməsini təmin etməlidir.[25] Ayrı-seçkiliyə məruz qalan və ya məruz qalmış, yaxud toplantılarda iştirak baxımından konkret çətinliklə üzləşə biləcək qrupların üzvləri olan fərdlərin dinc toplaşmaq hüququnun həyata keçirilməsinə bərabər və səmərəli şəraitin yaradılması və onun müdafiəsini təmin etmək üçün xüsusi səylər göstərilməlidir.[26] Bundan əlavə, Dövlətlər bütün iştirakçıları ayrı-seçkilik əsaslı zorakılıq və hücumların bütün növlərindən qorumaq öhdəliyi daşıyır.[27]

26. Dinc toplaşmaq hüququ iştirakçıları cəmiyyətin digər üzvləri tərəfindən onlara qarşı etirazlardan azad etmir. Dövlətlər əks-nümayişlərin toplantılar kimi keçirilməsinə ayrıca hüquq kimi hörmət

---

7.4). Həmçinin bax: CCPR/C/BEN/CO/2, bənd 33, A/HRC/20/27, bənd 33, və İnsan Hüquqları Şurasının 38/11 nömrəli qətnaməsi.

[24] *Alekseev Rusiya Federasiyasına qarşı*, bənd 9.6.

[25] CCPR/C/GEO/CO/4, bənd 8; CCPR/C/MNG/CO/6, bəndlər 11–12; CCPR/C/RUS/CO/7, bənd 10; və CCPR/C/PRY/CO/3, bənd 9. Həmçinin bax: CRC/C/KEN/CO/3-5, bəndlər 27–28; və Yerli Xalqların Hüquqları haqqında BMT Bəyannaməsi, maddə 2.

[26] A/HRC/31/66, bənd 16.

[27] CCPR/C/CHL/CO/6, bənd 19. Həmçinin bax: *Fedotova Rusiya Federasiyasına qarşı* (CCPR/C/106/D/1932/2010), bənd 10.4.

etməli və təmin etməli, eyni zamanda qarşı tərəfin toplantılarının əsassız şəkildə pozulmasının qarşısını almalıdır.[28] Dövlətlər prinsip etibarilə, əks-nümayişlərə məzmunca neytral yanaşma nümayiş etdirməlidir. Bu nümayişlərin mümkün dərəcədə, onların qarşı çıxdıqları toplantıların iştirakçılarının görə və eşidə biləcəyi şəraitdə keçirilməsinə icazə verilməlidir.

27. Dinc toplantının cəmiyyətin bəzi üzvlərinin mənfi və ya hətta zorakı reaksiyalarına səbəb olmasının mümkünlüyü toplantını qadağan etmək və ya məhdudlaşdırmaq üçün kifayət qədər əsas yaratmır.[29] Dövlətlər bütün iştirakçıları qorumaq və bu cür toplantıların maneəsiz şəkildə keçirilməsinə imkan vermək üçün onların üzərinə qeyri-mütənasib yük qoyulması ilə nəticələnməyən bütün ağlabatan tədbirləri görməyə borcludur (həmçinin bax: aşağıda 52-ci bənd).

28. İşlək və şəffaf hüquqi sistem və qərar qəbulu sistemi dinc toplantılara hörmət etmək və onları təmin etmək öhdəliyinin təməlində dayanır. Milli qanunvericilik dinc toplaşmaq hüququnu qəbul etməli, cəlb olunan bütün dövlət məmurlarının vəzifə və öhdəliklərini aydın şəkildə müəyyən etməli, müvafiq beynəlxalq standartlarla uzlaşmalı və ictimaiyyət üçün əlçatan olmalıdır. Dövlətlər qanunlar və əsasnamələr, o cümlədən hüququndan istifadə etmək istəyən şəxslər tərəfindən yerinə yetirilməli prosedurlar, məsul səlahiyyətli şəxslər, bu rəsmilərə şamil edilən qaydalar və iddia olunan hüquq pozuntularının aradan qaldırılması üçün mövcud olan hüquqi müdafiə vasitələri barədə ictimai məlumatlılığı təmin etməlidir.

29. İştirakçı dövlətlər toplantıdan əvvəl və sonra, toplantı müddətində bu hüququ qoruyub saxlamaq üçün başqa vasitələrlə yanaşı, səmərəli hüquqi müdafiə vasitələrinə, o cümlədən məhkəmə vasitələrinə, milli insan hüquqları institutlarına vaxtında çıxış imkanının təmin edilməsi vasitəsilə, dinc toplantılarla məşğul olan bütün orqanlar üzərində müstəqil və şəffaf nəzarəti təmin etməlidir.

---

[28] Avropa İnsan Hüquqları Məhkəməsi, *"Ärzte für das Leben" platforması Avstriyaya qarşı* (ərizə № 10126/82), 21 iyun 1988-ci il tarixli qərar, bənd 32.

[29] İnsan Hüquqları və Xalqların Hüquqları üzrə Afrika Komissiyası, *Afrikada birləşmək və sərbəst toplaşmaq azadlığı üzrə Rəhbər Qaydalar*, bənd 70 (a).

30. Dinc toplaşmaq hüququnun tam həyata keçirilməsi üçün jurnalistlərin, hüquq müdafiəçilərinin, seçkilərdə monitorinq aparan şəxslərin və toplantıların monitorinqinə və işıqlandırılmasına cəlb olunan digər şəxslərin rolu xüsusi əhəmiyyət kəsb edir. Bu şəxslər Pakt çərçivəsində müdafiədən yararlanmaq hüququna malikdir.[30] Onlara bu funksiyaları, o cümlədən hüquq-mühafizə orqanlarının işçilərinin hərəkətlərinin monitorinqi ilə bağlı funksiyaları həyata keçirmək qadağan edilə bilməz və ya əsassız şəkildə məhdudlaşdırıla bilməz. Onlar qisas tədbirləri və ya digər növ təzyiqlə üzləşməməli, avadanlıqları müsadirə edilməməli və ya zədələnməməlidir.[31] Hətta toplantı qeyri-qanuni elan edildikdə və ya dağıdıldıqda belə, bu, monitorinq aparmaq hüququnu ləğv etmir. Müstəqil milli insan hüquqları institutları və qeyri-hökumət təşkilatları tərəfindən toplantıların monitorinqinin aparılması nümunəvi təcrübədir.

31. Dinc toplaşmaq hüququnun həyata keçirilməsi üçün əsas məsuliyyət iştirakçı dövlətlərin üzərindədir. Lakin sahibkarlıq müəssisələri də insan hüquqlarına, o cümlədən onların fəaliyyətlərinin və işçilərinin təsirlərinə məruz qalmış icmaların dinc toplaşmaq hüququna hörmət etmək öhdəliyi daşıyır.[32] Özəl biznes subyektləri və daha geniş cəmiyyətin bu hüququn icrası nəticəsində müəyyən dərəcədə gündəlik fəaliyyətin pozulması ilə üzləşməsi gözlənilə bilər.

32. Toplantıların çox zaman fikirlərin ifadə edilməsi məqsədi daşıdığını və siyasi nitqin də ifadə forması kimi xüsusi müdafiədən yararlandığını nəzərə alaraq, belə nəticəyə gəlinir ki, siyasi mesajı olan toplantılar üçün də yüksək səviyyədə şərait və müdafiə yaradılmalıdır.[33]

---

[30] *Zhagiparov Qazaxıstana qarşı* (CCPR/C/124/D/2441/2014), bəndlər 13.2–13.5. Həmçinin bax: Universal insan hüquqları və əsas azadlıqların təşviqi və müdafiəsi ilə bağlı fərdlərin, qrupların və ictimai orqanların hüquq və öhdəliklərinə dair Bəyannamə

[31] CCPR/C/MRT/CO/1, bənd 22. Həmçinin bax: Baş Assambleyanın 66/164 saylı qətnaməsi.

[32] Biznes və insan hüquqları üzrə rəhbər prinsiplər: BMT-nin "Müdafiə, hörmət və bərpa et" çərçivəsinin icrası.

[33] Fikir və ifadə azadlığı haqqında Ümumi Şərh № 34 (2011), bəndlər 34, 37–38 və 42–43. Həmçinin bax: CCPR/C/LAO/CO/1, bənd 33.

33. 21-ci maddə və onunla əlaqəli hüquqlar iştirakçıları sadəcə toplantının davam etdiyi müddətdə və yerdə müdafiə etmir. Fərd və ya qrup tərəfindən toplantının birbaşa konteksti xaricində həyata keçirilən, lakin bu hüququn istifadənin faydalı olması üçün onun tərkib elementi kimi çıxış edən əlaqəli fəaliyyətlər də əhatə olunur. Buna görə də, İştirakçı dövlətlərin öhdəlikləri aşağıdakı kimi fəaliyyətlərə də şamil olunur: iştirakçılar və ya təşkilatçılar tərəfindən resursların yığılması; planlaşdırma; planlaşdırılan tədbir barədə məlumatların yayılması;[34] tədbirə hazırlıq və tədbir üçün səyahət;[35] toplantıya qədər və toplantı müddətində iştirakçılar arasında rabitə; toplantının işıqlandırılması və ya toplantının keçirildiyi yerdən yayım; və daha sonra toplantını tərk etmək. Bu fəaliyyətlər də toplantının özü kimi bəzi məhdudiyyətlərə məruz qala bilər, lakin bu məhdudiyyətlər dar çərçivədə tətbiq olunmalıdır. Bundan əlavə, heç kəs dinc toplantıda iştirakına və ya onunla əlaqəsinə görə təzyiqə və ya digər qisas tədbirlərinə məruz qalmamalıdır.

34. Toplantı ilə əlaqəli bir çox fəaliyyətlər onlayn şəkildə keçirilir və ya digər formada rəqəmsal xidmətlərdən asılı olur. Bu cür fəaliyyətlər də 21-ci maddə çərçivəsində müdafiə olunur. İştirakçı dövlətlər dinc toplantılarla əlaqədar, internet rabitəsini kəsmək və ya əngəl yaratmaq kimi tədbirlər görməməlidir.[36] Bu, internet rabitəsi və ya kontentə çıxışla bağlı geolokasiya əsaslı və ya spesifik texnologiyaya yönələn müdaxiləyə də şamil edilir. Dövlətlər internet provayderlərinin və vasitəçilərinin fəaliyyətlərinin toplantıları və ya toplantı iştirakçılarının şəxsi həyatının toxunulmazlığını əsassız şəkildə məhdudlaşdırmamasını təmin etməlidir. Məlumatların yayılması üzrə sistemlərin fəaliyyətinə tətbiq edilən hər hansı məhdudiyyətlər ifadə azadlığı üzrə məhdudiyyətlərə dair meyarlara cavab verməlidir.[37]

35. Bütün dövlət orqanları dinc toplaşmaq hüququna hörmət etmək və onu təmin etmək öhdəliyi daşısa da, toplantılarla bağlı qərarlar çox vaxt yerli səviyyədə verilir. Buna görə də, Dövlətlər hökumətin bütün

[34] *Tulzhenkova Belarusa qarşı* (CCPR/C/103/D/1838/2008), bənd 9.3.
[35] *Evrezov və digərləri. Belarusa qarşı* (CCPR/C/112/D/1999/2010 və Corr.1), bənd 8.5.
[36] CCPR/C/CMR/CO/5, bənd 41.
[37] 34 nömrəli Ümumi Şərh, bənd 34.

səviyyələrində bu qərarlara cəlb olunan rəsmilər üçün adekvat hazırlıq və resursları təmin etməlidir.

## IV. Dinc toplaşmaq hüququna məhdudiyyətlərin tətbiqi

36. Dinc toplaşmaq hüququ müəyyən hallarda məhdudlaşdırıla bilər. Lakin hər hansı məhdudiyyətlərin tətbiqinin əsaslandırılması öhdəliyi hakimiyyətin üzərinə düşür[38] Hakimiyyət hər hansı məhdudiyyətlərin qanunilik tələbinə cavab verdiyini, aşağıda təsvir edilən 21-ci maddədə sadalanan məhdudiyyətlər üçün nəzərdə tutulan məqbul əsaslardan ən azı biri üçün zəruri olduğunu və mütənasib olduğunu nümayiş etdirə bilməlidir. Bu öhdəlik yerinə yetirilmədikdə, 21-ci maddənin pozuntusu baş verir.[39] Hər hansı məhdudiyyətlərin tətbiqi zamanı bu hüquqa lüzumsuz və qeyri-mütənasib məhdudiyyətlərin tətbiqinə çalışmaq əvəzinə, bu hüquqa şərait yaratmaq məqsədi rəhbər tutulmalıdır.[40] Məhdudiyyətlər ayrı-seçkiliyə yol verməməli, hüququn mahiyyətinə xələl gətirməməli, yaxud toplantılarda iştirakdan çəkindirməyə və ya çəkindirici təsirlər yaratmağa yönəlməməlidir.

37. Konkret bir toplantının qadağan edilməsi yalnız son tədbir kimi nəzərdən keçirilməlidir. Toplantı üzərində məhdudiyyətin tətbiqi zəruri hesab edildikdə, hakimiyyət toplantını ən az məhdudlaşdıran tədbirləri tətbiq etməyə səy göstərməlidir. Dövlətlər həmçinin, bütün riskləri aradan qaldırmağa səy kimi məhdudiyyətləri qabaqcadan tətbiq etmək əvəzinə, toplantının baş verməsinə icazə verməyi və daha sonra hadisə zamanı baş vermiş qanun pozuntularına dair tədbirlərin görülüb-görülməməsi ilə bağlı qərar verməyi nəzərdən keçirməlidir.[41]

38. Dinc toplantılarda iştirakla bağlı hər hansı məhdudiyyətlər iştirakçıların davranışının və müvafiq toplantının differensial və fərdi

[38] *Gryb Belarusa qarşı* (CCPR/C/103/D/1316/2004), bənd 13.4.
[39] *Chebotareva Rusiya Federasiyasına qarşı* (CCPR/C/104/D/1866/2009), bənd 9.3.
[40] *Turchenyak və digərləri Belarusa qarşı*, bənd 7.4.
[41] ATƏT və Venesiya Komissiyası, *Dinc toplaşmaq azadlığı haqqında Rəhbər Qaydalar*, bənd 132 və 220–222.

qiymətləndirilməsinə əsaslanmalıdır. Dinc toplantılara bütövlükdə ümumi məhdudiyyətlərin tətbiq edilməsi qeyri-mütənasib hesab edilir.

39. 21-ci maddənin ikinci cümləsinə görə, qanuna müvafiq surətdə qoyulan məhdudiyyətlərdən başqa, dinc toplaşmaq hüququnun həyata keçirilməsinə heç bir məhdudiyyət tətbiq edilə bilməz. Bu, Paktın digər maddələrində məhdudiyyətlərin "qanunla nəzərdə tutulması" tələbinə bənzər şəkildə, formal qanuna uyğunluq tələbini yaradır. Buna görə də, məhdudiyyətlər qanunvericilik və ya ona əsaslanan inzibati qərarlar çərçivəsində tətbiq edilməlidir. Sözügedən qanunlar cəmiyyət üzvlərinin öz davranışlarını necə tənzimləməsinə qərar verməlbegrinə imkan vermək üçün kifayət qədər dəqiq olmalıdır və onların icrasının həvalə olunduğu şəxslərə məhdudiyyətsiz və ya geniş bir diskresion mühakimə hüququ verə bilməz.[42]

40. 21-ci maddə, məhdudiyyətlərin "demokratik cəmiyyətdə zəruri" olmalı olduğunu müəyyən edir. Bu səbəbdən, məhdudiyyətlər sadəcə ağlabatan və ya məqsədəuyğun olmaq əvəzinə, demokratiya, qanunun aliliyi, siyasi plüralizm və insan hüquqlarına əsaslanan bir cəmiyyət kontekstində zəruri və mütənasib olmalıdır.[43] Bu cür məhdudiyyətlər, 21-ci maddədə sadalanan məqbul əsaslardan biri ilə əlaqəli olmalı, təxirəsalınmaz sosial zərurətə adekvat cavab olmalıdır. Bununla yanaşı, onlar həm də müvafiq qoruyucu funksiya yerinə yetirə biləcək tədbirlər arasında toplantını ən az məhdudlaşdıranı olmalıdır.[44] Bundan əlavə, onlar mütənasib olmalıdır. Bunun üçün isə müdaxilənin xarakteri və onun bu hüquqdan istifadəyə zərərli təsiri ilə müdaxilə üçün əsasların birinə verilən faydanın müqayisə edildiyi dəyər qiymətləndirməsi aparılmalıdır.[45] Zərər faydadan üstün olarsa, məhdudiyyət qeyri-mütənasibdir və buna görə də yolverilməzdir.

[42] *Nepomnyashchiy Rusiya Federasiyasına qarşı* (CCPR/C/123/D/2318/2013), bənd 7.7; 34 nömrəli Ümumi Şərh, bənd 25.

[43] 34 nömrəli Ümumi Şərh, bənd 34.

[44] *Toregozhina Qazaxıstan qarşı* (CCPR/C/112/D/2137/2012), bənd 7.4.

[45] eyni yer, bəndlər 7.4 və 7.6. ATƏT və Venesiya Komissiyası, *Dinc toplaşmaq azadlığı haqqında Rəhbər Qaydalar*, bənd. 131.

41. 21-ci maddənin ikinci cümləsinin sonuncu hissəsi dinc toplaşmaq hüququnun məhdudlaşdırılmasına əsas verə biləcək qanuni əsasları müəyyən edir. Bu, tam və qəti siyahı olmaqla, aşağıdakı əsaslardan ibarətdir: milli təhlükəsizlik maraqları; ictimaiyyətin təhlükəsizliyi; ictimai asayiş (*ordre public*); əhalinin sağlamlığının və mənəviyyatının qorunması; və yaxud başqa şəxslərin hüquq və azadlıqlarının qorunması.

42. "Milli təhlükəsizlik maraqları" o zaman məhdudiyyətlər üçün əsas kimi çıxış edə bilər ki, bu məhdudiyyətlər Dövlətin millətin mövcudluğunu, ərazi bütövlüyünü və ya siyasi müstəqilliyini gücdən istifadə və ya müvafiq əsaslı təhdidə qarşı müdafiə etmək qabiliyyətini qoruyub saxlamaq üçün zəruridir.[46] Bu norma "dinc" toplantılara yalnız müstəsna hallarda şamil olunacaqdır. Bundan əlavə, milli təhlükəsizliyin məhz insan hüquqlarının boğulması səbəbindən pisləşdiyi halda, bu, əlavə məhdudiyyətləri, o cümlədən dinc toplaşmaq hüququna məhdudiyyətləri əsaslandırmaq üçün istifadə edilə bilməz.[47]

43. Dinc toplaşmaq hüququna məhdudiyyətlərin tətbiqi üçün "ictimaiyyətin təhlükəsizliyinin" qorunması zərurətini əsas gətirmək[48] üçün bu toplantının şəxslərin təhlükəsizliyinə (şəxsin həyatına və ya təhlükəsizliyinə) qarşı real və önəmli risk yaratdığı, yaxud mülkiyyətə oxşar şəkildə ciddi zərər vurması riski yaratdığı müəyyən edilməlidir.[49]

44. "İctimai asayiş" dedikdə cəmiyyətin normal fəaliyyətini təmin edən qaydaların məcmusu, yaxud cəmiyyətin təməlini təşkil edən və insan hüquqlarına, o cümlədən dinc toplaşmaq hüququna hörməti ehtiva edən əsas prinsiplər qrupu nəzərdə tutulur.[50] İştirakçı dövlətlər dinc toplaşmaq hüququna ümumi məhdudiyyətləri əsaslandırmaq üçün "ictimai asayiş"in qeyri-müəyyən tərifini əsas götürməməlidir.[51] Dinc toplantılar bəzi

[46] Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müddəalarının məhdudlaşdırılması və onlardan kənarlaşma üzrə Sirakuz Prinsipləri (E/CN.4/1985/4, əlavə), bənd 29.
[47] eyni yer, bənd 32.
[48] CCPR/C/MKD/CO/3, bənd 19; və *Alekseev Rusiya Federasiyasına qarşı*, bənd 9.5.
[49] Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müddəalarının məhdudlaşdırılması və onlardan kənarlaşma üzrə Sirakuz Prinsipləri, bənd 33.
[50] eyni yer, bənd 22.
[51] CCPR/C/KAZ/CO/1, bənd 26; və CCPR/C/DZA/CO/4, bəndlər 45–46.

hallarda təbii olaraq və ya məqsədli şəkildə gündəlik həyata mane ola bilər və buna görə də əhəmiyyətli dərəcədə tolerantlıq tələb edir. "İctimai asayiş" və "qanun və qayda" sinonim deyil və milli qanunvericilikdə "ictimai iğtişaş"ın qadağan edilməsi dinc toplantıları əsassız şəkildə məhdudlaşdırmaq üçün istifadə edilməməlidir.

45. "Əhalinin sağlamlığının" müdafiəsi müstəsna hallarda məhdudiyyətlərin tətbiqinə əsas verə bilər. Buraya məsələn, infeksion xəstəliyin alovlanması və toplantıların bu səbəbdən təhlükəli olduğu hallar daxildir. Bu, toplantı zamanı sanitar-gigiyenik vəziyyətin ümumi əhalinin və ya iştirakçıların özlərinin sağlamlığı üçün əsaslı dərəcədə risk yaratdığı ekstremal hallarda da tətbiq edilə bilər.[52]

46. Dinc toplantılara məhdudiyyətlər müstəsna hallarda "mənəviyyatın" qorunması üçün tətbiq edilə bilər. Bu əsas ümumiyyətlə istifadə olunarsa, mənəviyyatın müstəsna olaraq yalnız bir sosial, fəlsəfi və ya dinini ənənəyə əsaslanan anlayışlarının müdafiəsi üçün istifadə edilməməli,[53] bu növ hər hansı məhdudiyyətlər insan hüquqlarının universallığı, plüralizm və ayrı-seçkiliyə yol verməmə prinsipi çərçivəsində başa düşülməlidir.[54] Bu əsasla tətbiq edilən məhdudiyyətlər, məsələn, cinsi oriyentasiya və ya gender kimliyinin ifadə olunmasına qarşı müqavimət səbəbilə tətbiq oluna bilməz.[55]

47. "Digərlərinin hüquq və azadlıqlarının" qorunması üçün tətbiq olunan məhdudiyyətlər bu Pakt çərçivəsində müdafiə olunan hüquqlara və ya toplantıda iştirak etməyən insanların digər hüquqlarına aid ola bilər. Bundan əlavə, toplantılar ictimai və digər sahələrdən qanuni şəkildə istifadə edir və təbii olaraq, gündəlik həyata müəyyən səviyyədə maneələr yarada bilər. Bu səbəbdən, bu cür maneələrə yol verilməlidir, o

[52] Avropa İnsan Hüquqları Məhkəməsi, *Cisse Fransaya qarşı* (ərizə № 51346/99), 9 aprel 2002-ci il tarixli qərar.

[53] Fikir, vicdan və din azadlığı haqqında Ümumi Şərh № 22 (1993), bənd 8.

[54] 34 nömrəli Ümumi Şərh, bənd 32.

[55] *Fedotova Rusiya Federasiyasına qarşı*, bəndlər 10.5–10.6; və *Alekseev Rusiya Federasiyasına qarşı*, bənd 9,6.

şərtlə ki, onlar qeyri-mütənasib yük yaratmır. Əks halda, hakimiyyət hər hansı məhdudiyyətlərin tətbiqini geniş şəkildə əsaslandıra bilməlidir.[56]

48. 21-ci maddədə məhdudiyyətlərin tətbiqi üçün müəyyən edilmiş və yuxarıda bəhs edilən ümumi çərçivədən əlavə, dinc toplaşmaq hüququna tətbiq olunan məhdudiyyətlərlə bağlı nəzərə alınmalı əlavə amillər mövcuddur. Bu hüququn həyata keçirilməsində hər hansı məhdudiyyətlərin məzmunca neytral olması və toplantının ifadə etdiyi mesajla əlaqəli olmaması tələbi həlledici rol oynayır.[57] Bu tələbə cavab verməyən yanaşma dinc toplantıların insanlara ideyaları irəli sürmək və onlara verilən dəstəyin səviyyəsini müəyyən etmək imkanı verən, potensial siyasi və sosial iştirak aləti kimi çıxış etmək məqsədini heçə endirir.

49. Toplantıların fikirlərin ifadəsi ilə bağlı elementlərini nəzərdən keçirərkən, ifadə azadlığına şamil edilən qaydalar tətbiq olunmalıdır. Beləliklə, dinc toplantılara tətbiq edilən məhdudiyyətlər birbaşa və ya dolayı şəkildə, hökumətə siyasi müqavimətin,[58] hakimiyyətə yönələn çağırışların, o cümlədən hökumətdə, konstitusiyada və ya siyasi sistemdə demokratik dəyişikliklərin, habelə öz müqəddəratını təyin etmə amalının ifadə edilməsini boğmaq üçün istifadə edilməməlidir. Onlar rəsmi şəxslərin və ya dövlət orqanlarının şərəf və nüfuzuna yönələn təhqirləri qadağan etmək üçün istifadə edilməməlidir.[59]

50. Paktın 20-ci maddəsinə uyğun olaraq, dinc toplantılar müharibə təbliğatı (maddə 20 (1)), yaxud ayrı-seçkiliyə, düşmənçiliyə və ya zorakılığa təhriki özündə əks etdirərək milli, irqi və ya dini nifrətin təşviqi (maddə 20 (2)) üçün istifadə edilə bilməz. Mümkün dərəcədə, bu hallarda bütövlükdə toplantıya qarşı tədbir görmək əvəzinə, hərəkəti törədən fərdlərə qarşı tədbirlər görülməlidir. Əsas mesajı 20-ci maddənin tətbiq

---

[56] *Stambrovsky Belarusa qarşı* (CCPR/C/112/D/1987/2010), bənd 7.6; və *Pugach Belarusa qarşı* (CCPR/C/114/D/1984/2010), bənd 7.8.

[57] *Alekseev Rusiya Federasiyasına qarşı*, bənd 9.6.

[58] CCPR/C/MDG/CO/4, bənd 51.

[59] CCPR/C/79/Add.86, bənd 34 nömrəli Ümumi Şərh, bənd 38.

dairəsinə düşən toplantılarda iştirak 19 və 21-ci maddələrdə göstərilən məhdudiyyətlərə dair tələblərə uyğun olaraq həll edilməlidir.[60]

51. Ümumilikdə, bayraqların, rəsmi geyimlərin, nişanların və plakatların istifadəsi qanuni ifadə forması kimi qəbul edilməli və məhdudlaşdırılmamalıdır (hətta bu cür simvollar ağrılı keçmişi xatırlatsa belə). Bu cür simvolların birbaşa və əsas etibarilə ayrı-seçkiliyə, düşmənçiliyə və ya zorakılığa təhriklə əlaqəli olduğu müstəsna hallarda müvafiq məhdudiyyətlər tətbiq edilməlidir.[61]

52. Bir toplantının cəmiyyətin üzvlərinin iştirakçılara qarşı düşmənçilik xarakterli reaksiyasına səbəb olması və ya səbəb olma ehtimalı, bir qayda olaraq, məhdudiyyətlərin tətbiqinə əsas vermir; toplantının keçirilməsinə icazə verilməli və iştirakçılar qorunmalıdır (bax: yuxarıda 18-ci bənd). Bununla belə, dövlətin iştirakçıları onların təhlükəsizliyinə qarşı ciddi bir təhdiddən açıq şəkildə qoruya bilmədiyi müstəsna halda, toplantıda iştiraka məhdudiyyətlər tətbiq edilə bilər. Bu cür məhdudiyyətlər ciddi yoxlamadan keçməlidir. Dəqiq göstərilməyən zorakılıq riski, yaxud sadəcə hakimiyyətin bu toplantıya qarşı çıxanlardan qaynaqlanan zorakılığın qarşısını ala və ya nəzarət altına ala bilməmə ehtimalı kifayət etmir; Dövlət konkret risk qiymətləndirməsinə əsaslanaraq, hətta əhəmiyyətli miqyasda hüquq-mühafizə qüvvələrindən istifadə edildikdə belə vəziyyəti nəzarət altına ala bilməyəcəyini nümayiş etdirə bilməlidir.[62] Qadağa tədbirinə əl atmazdan qabaq, toplantının təxirə salınması və ya yerinin dəyişdirilməsi kimi, toplantını ən az məhdudlaşdıran məhdudiyyətlər nəzərdən keçirilməlidir.

53. Toplantıların vaxtı, yeri və forması məzmunca neytral şəkildə tənzimlənir və bu elementləri tənzimləyən məhdudiyyətlərə müəyyən

[60] 34 nömrəli Ümumi Şərh, bəndlər 50–52; İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya, art. 4; və İrqi Ayrı-seçkiliyin Ləğvi üzrə Komitə, İrqçilik xarakterli nifrət nitqi ilə mübarizə haqqında ümumi tövsiyə № 35 (2013). Həmçinin bax: Rabat Fəaliyyət planı, bənd 29, və Din və Hüquqlar haqqında Beyrut Bəyannaməsi (A/HRC/40/58, I və II əlavələr).

[61] ATƏT və Venesiya Komissiyası, *Dinc toplaşmaq azadlığı haqqında Rəhbər Qaydalar*, bənd 152. Həmçinin bax: Avropa İnsan Hüquqları Məhkəməsi, *Fáber Macarıstana qarşı*(ərizə № 40721/08), -ci il tarixli qərar 24 Oktyabr 2012, bəndlər 56–58.

[62] *Alekseev Rusiya Federasiyasına qarşı*, bənd 9.6.

qədər yol verilsə də, bu cür məhdudiyyətlərin fərdi əsasda əsaslandırılması öhdəliyi hakimiyyətin üzərinə düşür.[63] Bu cür məhdudiyyətlər yenə də imkan daxilində iştirakçılara öz hədəf auditoriyasının görə və eşidə bildiyi şəraitdə və ya onların məqsədi üçün mühüm olan başqa bir yerdə toplaşmaq imkanı verməlidir.[64]

54. Toplantıların vaxtı ilə bağlı məhdudiyyətlərə gəldikdə, iştirakçılar öz baxışlarını ifadə etmək və digər məqsədlərinə səmərəli şəkildə çatmağa səy göstərmək üçün yetərli imkana malik olmalıdır.[65] Bir qayda olaraq, dinc toplantıların özlərinin başa çatmasına imkan verilməlidir. Toplantıların keçirilə biləcəyi və ya bilməyəcəyi günün dəqiq vaxtı və ya tarixi ilə bağlı məhdudiyyətlər onların Paktla uyğunluğuna dair narahatlıqlar doğurur.[66] Toplantılar yalnız onların tezliyi səbəbilə məhdudlaşdırılmamalıdır. Nümayişin keçirildiyi vaxt, müddət və ya tezlik məsələn, onun məqsədinə nail olunmasında həlledici rol oynaya bilər. Lakin davamlı toplantıların məcmu təsiri məhdudiyyətin mütənasibliyinin qiymətləndirilməsində nəzərə alına bilər. Məsələn, mütəmadi olaraq yaşayış sahələrində gecələr keçirilən müəyyən toplantılar yaxınlıqda yaşayanlara əhəmiyyətli dərəcədə təsir edə bilər.

55. Yerlə bağlı məhdudiyyətlərə gəldikdə isə, dinc toplantılar prinsip etibarilə, əhalinin çıxışının olduğu və ya olmalı olduğu bütün yerlərdə, məsələn, meydanlarda və küçələrdə keçirilə bilər.[67] Bəzi yerlərə, məsələn, binalara və parklara ictimai çıxış imkanı ilə bağlı qaydalar bu yerlərdə toplaşmaq hüququnu məhdudlaşdıra bilsə də, bu cür məhdudiyyətlər 21-ci maddə çərçivəsində əsaslandırıla bilməlidir. Dinc toplantılar onların yönəldiyi auditoriyanın və ümumi ictimaiyyətin diqqətini təsirli şəkildə cəlb edə bilməyəcəkləri ucqar yerlərə təyin edilməməlidir.[68] Bir qayda olaraq, paytaxt şəhərlərdə,[69] şəhər daxilində

[63] ATƏT və Venesiya Komissiyası, *Dinc toplaşmaq azadlığı haqqında Rəhbər Qaydalar,* bənd 132.
[64] *Turchenyak və digərləri. Belarusa qarşı*, bənd 7.4.
[65] Avropa İnsan Hüquqları Məhkəməsi, *Éva Molnár Macarıstana qarşı*(ərizə № 10346/05), 7 oktyabr 2008-ci il tarixli qərar, bənd 42.
[66] CCPR/C/KOR/CO/4, bənd 52; və CCPR/C/TJK/CO/3, bənd 49.
[67] Insan Hüquqları üzrə Amerikalararası Komissiya, *Etiraz və İnsan hüquqları*, bənd 72.
[68] CCPR/C/KAZ/CO/1, bənd 26.

konkret bir yerdən başqa bütün yerlərdə[70] və ya şəhərin mərkəzindən kənarda [71] , yaxud şəhərin bütün küçələrində heç bir toplantının keçirilməməsi ilə bağlı ümumi qadağa ola bilməz.

56. Ümumiyyətlə, məhkəmələr, parlamentlər, tarixi əhəmiyyətə malik yerlər və ya digər rəsmi binalar kimi yerlərin ətraflarının toplantıların baş tuta bilməyəcəyi sahələr kimi təyin edilməsindən çəkinmək lazımdır, çünki bunlar ictimai yerlərdir. Bu cür yerlərin daxilində və ətrafında toplantıların keçirilməsinə hər hansı məhdudiyyətlər konkret şəkildə əsaslandırılmalı və dar çərçivədə müəyyən edilməlidir.[72]

57. Xüsusi məkanlarda toplantıların keçirilməsi dinc toplaşmaq hüququnun tətbiq dairəsinə daxil olsa da,[73] mülkiyyət hüququ olan digər şəxslərin maraqları lazımi şəkildə nəzərə alınmalıdır. Bu cür toplantıya məhdudiyyətlərin hansı ölçüdə tətbiq olunması məkanın mütəmadi olaraq ictimaiyyət üçün açıq olub-olmaması, toplantı ilə əlaqədar mülkiyyətə sahiblik hüquqları olan digər şəxslərin maraqlarına potensial müdaxilənin xarakteri və dərəcəsi, mülkiyyət üzərində hüquqları olanların bu cür istifadəyə razılıq verib-verməməsi, toplantının bu məkan üzərində mülkiyyət hüququnu mübahisələndirib-mübahisələndirməməsi və iştirakçıların toplantının məqsədinə çatmaq üçün "auditoriyanın görə və eşidə biləcəyi şərait" prinsipinə uyğun olaraq digər ağlabatan vasitələrinin olub-olmaması kimi amillər nəzərə alınır. [74] Xüsusi mülkiyyətə giriş ayrı-seçkiliyə yol verən şəkildə məhdudlaşdırıla bilməz.

58. Dinc toplantıların keçirilmə tərzinə dair məhdudiyyətlərə gəldikdə, iştirakçıların öz mesajlarını ifadə etmək üçün plakatlar, meqafonlar, musiqi alətləri və ya digər texniki vasitələr, məsələn, proyektordan istifadə edib-etməməklə bağlı qərarın verilməsini onların ixtiyarına

[69] CCPR/C/DZA/CO/4, bənd 45.
[70] *Turchenyak və digərləri. Belarusa qarşı*, bənd 7.5.
[71] *Sudalenko Belarusa qarşı* (CCPR/C/113/D/1992/2010), bənd 8.5.
[72] *Zündel Kanadaya qarşı* (CCPR/C/78/D/953/2000), bənd 8.5.
[73] *Giménez Paraqvaya qarşı* (CCPR/C/123/D/2372/2014), bənd 8.3; və Avropa İnsan Hüquqları Məhkəməsi, *Annenkov və digərləri Rusiyaya qarşı* (ərizə № 31475/10), 25 iyul 2017-ci il tarixli qərar, bənd 122.
[74] Avropa İnsan Hüquqları Məhkəməsi, *Appleby və digərləri Birləşmiş Krallığa qarşı* (ərizə № 44306/98), 6 may 2003-ci il tarixli qərar, bənd 47.

buraxmalıdır. Toplantılar zamanı iştirakçıların öz auditoriyalarına çata bilməsi və ya başqa formada məqsədlərinə nail ola bilməsi üçün müvəqqəti qurğular, o cümlədən səs sistemləri qurula bilər.[75]

59. Ümumilikdə, iştirakçı dövlətlər toplantılarıdakı iştirakçıların sayını məhdudlaşdırmamalıdır.[76] Bu cür hər hansı məhdudiyyət yalnız o zaman məqbul ola bilər ki, 21-ci maddədə müəyyən edilmiş məhdudiyyətlərlə bağlı qanuni əsaslardan biri ilə aydın əlaqəsi olsun. Məsələn, əhalinin təhlükəsizliyi ilə bağlı amillər stadion və ya körpüdə maksimum izdiham tutumunu diqtə edə bilər və ya əhalinin sağlamlığı ilə bağlı amillər fiziki məsafənin saxlanılmasını şərtləndirə bilər.

60. Toplantının iştirakçılarının üz örtükləri və ya digər örtüklərdən, məsələn, baş örtüyü və ya maskalardan istifadə etməsi, yaxud anonim şəkildə iştirak üçün digər addımlar atması dinc toplantının ehtiva etdiyi fikirlərin ifadə edilməsi elementinin bir hissəsini təşkil edə və ya başqa vasitələrlə yanaşı yeni müşahidə texnologiyaları vasitəsilə qisas tədbirlərindən qorunmağa və ya şəxsi həyatın toxunulmazlığını qorumağa xidmət edə bilər. İştirakçıların anonimliyinə icazə verilməlidir, o şərtlə ki, onların davranışı həbs üçün ağlabatan əsaslar yaratmır[77] və ya digər bənzər inandırıcı əsaslar mövcud deyil (məsələn, üz örtüyünün, yuxarıda (bax: 51-ci bənd) təsvir edilən əsaslarla məhdudlaşdırılan hansısa simvolun bir hissəsini təşkil etməsi). Üz örtüklərindən istifadənin özlüyündə zorakılıq niyyətini təcəssüm etdirməsi düşünülməməlidir.

61. Hakimiyyət tərəfindən müvafiq məlumatların və informasiyaların toplanması müəyyən hallarda toplantılara şəraitin yaradılmasına kömək edə bilər. Lakin bu, hüquqların boğulması və ya çəkindirici təsirlə nəticələnməməlidir. Hər hansı məlumatların dövlət və ya özəl qurumlar tərəfindən müşahidə və ya rabitə vasitələrinin izlənilməsi kimi üsullarla toplanması və məlumatların toplanması, bölüşülməsi, saxlanılması və əlçatanlığının təmin edilməsi qaydası müvafiq beynəlxalq standartlara, o

---

[75] Avropa İnsan Hüquqları Məhkəməsi, *Frumkin Rusiyaya qarşı*, bənd 107.
[76] CCPR/C/THA/CO/2, bənd 39.
[77] ATƏT və Venesiya Komissiyası, *Dinc toplaşmaq azadlığı haqqında Rəhbər Qaydalar*, bənd 153. İnsan Hüquqları və Xalqların Hüquqları üzrə Afrika Komissiyası, *Afrikada birləşmək və sərbəst toplaşmaq azadlığı üzrə Rəhbər Qaydalar*, bənd 81.

cümlədən şəxsi həyatın toxunulmazlığı hüququ ilə bağlı beynəlxalq standartlara uyğun olmalı və heç vaxt toplantıların iştirakçılarının və ya potensial iştirakçılarının qoruxudulması və ya təzyiqə məruz qoyulması məqsədini daşımamalıdır.[78] Bu cür praktika adekvat və ictimaiyyət üçün əlçatan olan, beynəlxalq standartlarla uzlaşan və məhkəmə araşdırması subyekti olan daxili hüquqi çərçivələr tərəfindən tənzimlənməlidir.[79]

62. Konkret bir toplantının ictimai şəkildə keçirilməsi özlüyündə o demək deyil ki, iştirakçıların şəxsi həyatının toxunulmazlığı pozula bilməz. Şəxsi həyatın toxunulmazlığı hüququ məsələn, üz tanıma texnologiyaları və izdihamdakı iştirakçıları fərdi şəkildə müəyyən edə bilən digər texnologiyalar vasitəsilə pozula bilər.[80] Bu, dinc toplantıların iştirakçıları barədə məlumatların toplanması üçün sosial medianın monitorinqinə də şamil edilir. Bu tədbirlərin konvensiya ilə uzlaşmasını təmin etmək məqsədilə, dinc toplantılarda iştirak edənlərin şəxsi məlumatlarının və informasiyalarının toplanması qərarı üzərində və bu məlumatların bölüşülməsi və ya saxlanması üzərində müstəqil və şəffaf yoxlama və nəzarət həyata keçirilməlidir.

63. Dövlət vəzifəli şəxslərin dinc toplantılarda iştirak etmək azadlığı onların qərəzsizliyinə və bununla onların öz xidməti vəzifələrini yerinə yetirmək qabiliyyətinə ictimai inamı təmin etmək zərurətinə əsasən qəti şəkildə tələb olunandan artıq həddə məhdudlaşdırılmamalıdır[81] və hər hansı bu cür məhdudiyyətlər 21-ci maddə ilə uzlaşmalıdır.

64. İştirakçılardan və ya təşkilatçılardan polis nəzarəti və ya təhlükəsizlik, tibbi yardım və ya təmizlik,[82] yaxud dinc yığıncaqlarla əlaqəli digər dövlət xidmətləri ilə bağlı xərcləri qarşılamaq[83] və ya qarşılanmasına töhfə

[78] A/HRC/31/66, bənd 73.
[79] CCPR/C/KOR/CO/4, bəndlər 42–43.
[80] A/HRC/44/24, bəndlər 33–34.
[81] ATƏT və Venesiya Komissiyası, *Dinc toplaşmaq azadlığı haqqında Rəhbər Qaydalar*, bənd 110.
[82] CCPR/C/CHE/CO/4, bənd 48.
[83] *Poliakov Belarusa qarşı* (CCPR/C/111/D/2030/2011), bəndlər 8.2–8.3; və CCPR/C/BLR/CO/5, bənd 51 (a).

verməklə bağlı tələblər bir qayda olaraq 21-ci maddə ilə uzlaşmır.[84]

65. Təşkilatçılar və iştirakçıların toplantı ilə bağlı hüquqi tələblərə əməl etməsi gözlənilir və onlar digərlərini təhrik etmək də daxil olmaqla, öz qeyri-qanuni davranışına görə məsuliyyətə cəlb edilə bilər.[85] Müstəsna hallarda, təşkilatçılar özlərinin birbaşa cavabdeh olmadığı zərər və ya xəsarətlərə görə məsuliyyətə cəlb edildikdə, bu, o hallarla məhdudlaşmalıdır ki, sübutlar təşkilatçıların bu zərəri və ya xəsarətləri qabaqcadan müəyyənləşdirə və qarşısını ala bilməsinin mümkün olduğunu ağlabatan dərəcədə nümayiş etdirir.[86] Təşkilatçıların zərurət olduqda asayişi qorumaq üçün məsul şəxslər təyin etməsi nümunəvi təcrübədir, lakin bu qanunla tələb olunmamalıdır.

66. Hakimiyyət fərdlərdən gələcəkdə toplantılar təşkil etməmək və ya onlarda iştirak etməməklə bağlı iltizam ala və ya öhdəlik qoya bilməz.[87] Digər tərəfdən, heç kəs hansısa toplantıda iştiraka məcbur edilə bilməz.[88]

67. Qanunsuz davranışlarına görə dinc toplantının təşkilatçılarına və ya iştirakçılarına cinayət və ya inzibati xarakterli cəzalar tətbiq edildiyi təqdirdə, bu cəzalar xarakter baxımından mütənasib olmalı, ayrı-seçkiliyə yol verməməli, qeyri-müəyyən və ya həddən artıq geniş müəyyən edilmiş pozuntulara əsaslanmamalı və ya Pakt çərçivəsində qorunan davranışı boğmamalıdır.

68. Terror əməlləri beynəlxalq hüquqa uyğun olaraq cinayət məsuliyyəti yaratmalı olsa da, bu cür cinayətlərin tərifi həddən artıq geniş olmamalı və ya ayrı-seçkiliyə yol verməməli, dinc toplaşmaq hüququnu məhdudlaşdırmaq və ya onun icrasından çəkindirmək üçün tətbiq edilməməlidir.[89] Sadəcə dinc toplantının təşkili və ya toplantıda iştirak

---

[84] İnsan Hüquqları və Xalqların Hüquqları üzrə Afrika Komissiyası, *Afrikada birləşmək və sərbəst toplaşmaq azadlığı üzrə Rəhbər Qaydalar*, bənd 102 (b).
[85] A/HRC/31/66, bənd 26.
[86] ATƏT və Venesiya Komissiyası, *Dinc toplaşmaq azadlığı haqqında Rəhbər Qaydalar*, bənd 224.
[87] CCPR/C/KHM/CO/2, bənd 22; və CCPR/C/JOR/CO/5, bənd 32.
[88] CCPR/C/TKM/CO/2, bənd 44.
[89] CCPR/C/SWZ/CO/1, bənd 36; və CCPR/C/BHR/CO/1, bənd 29. Həmçinin bax: A/HRC/40/52.

əməli terrorla mübarizə üzrə qanunvericilikdə cinayət məsuliyyəti yaratmamalıdır.

69. Məhdudiyyətlərlə bağlı hüquqi müdafiə vasitəsindən istifadə üçün məhkəmələrə və ya digər məhkəmə hakimiyyəti orqanlarına müraciət imkanı (apellyasiya şikayəti və ya təkrar baxış imkanı da daxil olmaqla) asanlıqla əlçatan olmalıdır. Toplantıların keçirilməsinə qoyulan məhdudiyyətlərə qarşı bu icraat proseslərinin vaxtında baş tutması və müddəti bu hüququn həyata keçirilməsini təhlükə altına almamalıdır.[90] Paktın prosessual təminatları bütün bu hallara, habelə dinc toplantılarla əlaqəli həbs və ya sanksiyaların, məsələn cərimələrin tətbiqi kimi məsələlərə də şamil edilir.[91]

## V. Xəbərdarlıq rejimləri

70. Dinc toplantı keçirmək üçün hakimiyyətdən icazə almağın məcburiliyi dinc toplantının əsas hüquqlardan biri olması ideyasını sarsıdır.[92] Dinc toplantı təşkil etmək istəyənlərin hakimiyyəti qabaqcadan məlumatlandırmasını və müəyyən səciyyəvi detalları təmin etməsini tələb edən xəbərdarlıq sistemləri o şərtlə məqbul sayılır ki, hakimiyyətə dinc toplantıların rəvan gedişatına şəraitin yaradılmasında və digərlərinin hüquqlarının qorunmasında faydalı olacağı zəruri həddi keçməsin.[93] Bununla yanaşı, bu tələb dinc toplantıları boğmaq üçün sui-istifadə edilməməli və bu hüquqa edilə biləcək digər müdaxilələrdə olduğu kimi, 21-ci maddədə sadalanan əsaslarla əsaslandırıla bilməlidir.[94] Xəbərdarlıq tələblərinin icrası özlüyündə son addım olmamalıdır.[95] Xəbərdarlıq prosedurları şəffaf olmalı, lüzumsuz dərəcədə bürokratik olmamalı,[96]

---

[90] CCPR/C/POL/CO/6, bənd 23.
[91] *E.V. Belarusa qarşı* (CCPR/C/112/D/1989/2010), bənd 6.6.
[92] CCPR/C/MAR/CO/6, bənd 45; CCPR/C/GMB/CO/2, bənd İnsan Hüquqları və Xalqların Hüquqları üzrə Afrika Komissiyası, *Afrikada birləşmək və sərbəst toplaşmaq azadlığı üzrə Rəhbər Qaydalar*, bənd 71.
[93] *Kivenmaa Finlandiyaya qarşı*, bənd 9.2. İnsan Hüquqları və Xalqların Hüquqları üzrə Afrika Komissiyası, *Afrikada birləşmək və sərbəst toplaşmaq azadlığı üzrə Rəhbər Qaydalar*, bənd 72.
[94] *Kivenmaa Finlandiyaya qarşı*, bənd 9.2. Həmçinin bax: *Sekerko Belarusa qarşı*, bənd 9.4.
[95] *Popova Rusiya Federasiyasına qarşı* (CCPR/C/122/D/2217/2012), bənd 7.5.
[96] *Poliakov Belarusa qarşı*, bənd 8,3.

təşkilatçılara yönələn tələblər müvafiq toplantının ictimaiyyətə potensial təsirinə mütənasib olmalı və ödənişsiz olmalıdır.

71. Tələb olunmasına baxmayaraq keçiriləcək toplantı barədə Hakimiyyətə xəbərdarlıq edilməməsi toplantıda iştirakı qanunsuz əmələ çevirmir və özlüyündə toplantını dağıtmaq, yaxud iştirakçıları və ya təşkilatçıları həbs etmək və ya əsassız cəzalar tətbiq etmək (məsələn, iştirakçı və ya təşkilatçılara qarşı cinayət ittihamlarının irəli sürülməsi) üçün əsas kimi istifadə edilməməlidir. Xəbərdarlığın edilməməsinə görə təşkilatçılara inzibati sanksiyalar tətbiq edildikdə bu, hakimiyyət tərəfindən əsaslandırılmalıdır.[97] Xəbərdarlığın edilməməsi hakimiyyəti öz imkanları daxilində toplantıya şərait yaratmaq və iştirakçıları müdafiə etmək öhdəliyindən azad etmir.

72. Planlaşdırılan toplantılara dair irəli sürülən hər hansı xəbərdarlıq tələbləri milli qanunvericilikdə nəzərdə tutulmalıdır. Minimum öncədən xəbərdarlıq müddəti tələb olunan şəraitin kontekstindən və səviyyəsindən asılı olaraq dəyişə bilər, lakin həddən artıq uzun olmamalıdır.[98] Əgər xəbərdarlıqdan sonra məhdudiyyətlər tətbiq edilərsə, onlar mübahisələndirmə məqsədilə məhkəmələrə və ya digər mexanizmlərə müraciətə vaxt saxlamaq üçün kifayət qədər erkən bildirilməlidir. Hər hansı xəbərdarlıq rejimi digər şəxslərə təsirinin ağlabatan dərəcədə minimum olacağının gözlənildiyi toplantılara (məsələn, xarakterinə, yerinə, miqyasının və ya müddətinin məhdud olmasına görə) şamil edilməməlidir. Qabaqcadan xəbərdarlıq verilməsi üçün kifayət qədər vaxtın olmadığı spontan toplantılar üçün xəbərdarlıq tələb edilməməlidir.[99]

73. Milli qanunvericilikdə icazə rejimləri qalırsa, onlar xəbərdarlıq sistemi kimi çıxış etməli, imtina üçün inandırıcı əsaslar olmadıqda, icbari qaydada

[97] Bax, məs., *Popova Rusiya Federasiyasına qarşı*, bəndlər 7.4–7.5. Həmçinin bax: A/HRC/31/66, bənd 23.
[98] CCPR/CO/83/KEN, bənd 23; CCPR/C/CHE/CO/4, bənd 48; və CCPR/C/DZA/CO/4, bənd 45.
[99] *Popova Rusiya Federasiyasına qarşı*, bənd 7.5. Həmçinin bax: Avropa İnsan Hüquqları Məhkəməsi, *Éva Molnár Macarıstana qarşı*, bənd 38.

icazələr verilməlidir. Öz növbəsində, xəbərdarlıq rejimləri icazə sistemləri kimi çıxış etməməlidir.[100]

## VI. Hüquq-mühafizə orqanlarının vəzifələri və səlahiyyətləri

74. Toplantılara nəzarətə cəlb olunan hüquq-mühafizə orqanlarının işçiləri təşkilatçıların və iştirakçıların əsas hüquqlarının həyata keçirilməsinə hörmət etmək və onları təmin etməklə yanaşı, jurnalistləri[101], monitorinq və müşahidə aparan şəxsləri, tibbi heyəti və digər ictimaiyyət üzvlərini, habelə ictimai və şəxsi mülkiyyəti zərərdən qorumalıdır.[102] Hakimiyyətin əsas yanaşması zərurət olduqda dinc toplantılara şərait yaratmağa çalışmaq olmalıdır.

75. Müvafiq hüquq-mühafizə orqanları hazırlığı yüksəltmək, gərginlikləri aradan qaldırmaq və mübahisələri həll etmək məqsədilə, toplantıdan əvvəl və toplantı müddətində toplantılara cəlb olunan müxtəlif tərəflər arasında kommunikasiya və dialoq üçün kanalların yaradılması istiqamətində imkan daxilində səy göstərməlidir.[103] Təşkilatçı və iştirakçıların bu cür təmasda iştirakı müsbət təcrübə olsa da, bunu etmək onlardan tələb oluna bilməz.

76. Hüquq-mühafizə orqanlarının iştirakının tələb olunduğu hallarda, toplantıya polis nəzarəti onun nəzərdə tutulduğu kimi keçirilməsinə şərait yaratmaq və hər hansı şəxsin xəsarət alması və ya əmlakın zədələnməsi potensialını minimuma endirmək məqsədilə planlaşdırılmalı və yerinə yetirilməlidir.[104] Planda bütüm müvafiq rəsmilərin və bölmələrin yerləşdirilməsi və onlar üçün təlimatlar və avadanlıqlar geniş şəkildə təsvir edilməlidir.

77. Xüsusilə, barəsində qabaqcadan hakimiyyətə xəbərdarlıq verilməyən və ictimai asayişə təsir edə biləcək toplantılara polis nəzarəti üçün müvafiq hüquq-mühafizə orqanları tərəfindən ümumi fövqəladə hal

[100] CCPR/C/UZB/CO/5, bəndlər 46–47; və CCPR/C/JOR/CO/5, bənd 32.
[101] CCPR/C/AGO/CO/1, bənd 21; CCPR/C/GEO/CO/4, bənd 12; və CCPR/C/KOR/CO/4, bənd 52.
[102] A/HRC/31/66, bənd 41.
[103] eyni yer, bənd 38.
[104] Insan Hüquqları Şurasının 38/11 nömrəli qətnaməsi; və A/HRC/26/36, bənd 51.

planları və təlim protokolları hazırlanmalıdır.[105] Əməkdaşların identifikasiyasını və gücdən istifadə barədə məlumatın verilməsini təmin etmə məqsədilə, məsuliyyəti müəyyən edə bilmək üçün aydın tabeçilik strukturları, habelə hadisələrin qeydə alınması və sənədləşdirilməsi üçün protokollar mövcud olmalıdır.

78. Hüquq-mühafizə orqanlarının əməkdaşları zorakılıqla nəticələnə biləcək vəziyyətlərdə gərginliyi aradan qaldırmağa səy göstərməlidir. Onlar bütün qeyri-zorakı vasitələrdən istifadə etməyə və güc tətbiqinin mütləq zəruri olduğu halda qabaqcadan xəbərdarlıq etməyə borcludur, o şərtlə ki, bunun açıq-aşkar səmərəsiz olacağı hesab edilmir. Hər hansı güc tətbiqi Paktın 6 və 7-ci maddələrinə şamil olunan qanunilik, zərurilik, mütənasiblik, ehtiyatlılıq və ayrı-seçkiliyə yol verməmək kimi əsas prinsiplərlə uzlaşmalıdır və gücdən istifadə edənlər hər bir güc tətbiqi halına görə məsul tutula bilməlidir.[106] Hüquq-mühafizə işçiləri tərəfindən güc tətbiqinə dair daxili hüquqi rejimlər beynəlxalq hüquqda nəzərdə tutulan tələblərlə uyğunlaşdırılmalı, "Hüquq-mühafizə işçiləri tərəfindən güc tətbiqi və odlu silahlardan istifadə haqqında Əsas Prinsiplər" və *BMT-nin "Hüquq-mühafizə sistemində daha az ölümcül silahlar haqqında İnsan Hüquqları Təlimatı"* kimi standartları rəhbər tutmalıdır.[107]

79. Toplantı zamanı, qanunların icrasının təmin edilməsi üçün tələb olunan qanuni məqsədlərlə yalnız minimum zəruri güc tətbiq oluna bilər. Hər hansı güc tətbiqinə olan zərurət keçdikdən sonra, məsələn, zorakı şəxs təhlükəsiz qaydada tutulduqdan sonra əlavə güc tətbiqinə icazə verilmir.[108] Hüquq-mühafizə orqanlarının işçiləri toplantının dağıdılması, cinayətin qarşısının alınması, cinayətkarların və ya cinayət törətməkdə şübhəli bilinən şəxslərin qanuni həbsini həyata keçirmək və ya kömək etmək kimi qanuni məqsədlə mütənasib olan həddən daha artıq güc tətbiq edə bilməz.[109] Milli qanunvericilik hüquq-mühafizə işçilərinə qeyri-məhdud səlahiyyətlər, məsələn, toplantıları dağıtmaq üçün "gücdən" və

[105] A/HRC/31/66, bənd 37.
[106] Yaşamaq hüququ haqqında Ümumi Şərh № 36 (2018), bəndlər 13–14.
[107] BMT nəşri, Seriya № E.20.XIV.2. Həmçinin bax: Hüquq-mühafizə işçilərinin Davranış Kodeksi.
[108] Hüquq-mühafizə işçilərinin Davranış Kodeksi, maddə 3.
[109] eyni yer, 3-cü maddənin şərhi.

ya "bütün zəruri gücdən" istifadə etmək və ya sadəcə ayaqlara atəş açmaq səlahiyyətləri verməməlidir. Xüsusilə, milli qanunvericilik toplantı iştirakçılarına qarşı lüzumsuz, həddindən artıq və ya ayrı-seçkiliyə yol verən bir şəkildə güc tətbiq edilməsinə icazə verməməlidir.[110]

80. Toplantılara polis nəzarətinin tətbiqinə yalnız bu sahə üzrə təlim keçmiş hüquq-mühafizə işçiləri cəlb edilməlidir.[111] Təlim bu işçiləri dinc toplantılarda iştirak edən həssas vəziyyətlərdə olan fərdlərin və ya qrupların xüsusi ehtiyacları barədə məlumatlandırmalıdır. Bu qruplara bəzi hallarda qadınlar, uşaqlar və əlilliyi olan şəxslər daxil ola bilər. Toplantılara nəzarət üçün hərbi qüvvələrdən istifadə edilməməlidir.[112] Lakin onlar müstəsna hallarda və müvəqqəti əsasda cəlb olunarsa, qabaqcadan onlara insan hüquqları üzrə adekvat hazırlıq keçirilməli və onlar hüquq-mühafizə işçiləri ilə eyni beynəlxalq qayda və standartlara əməl etməlidir.[113]

81. Toplantılara nəzarətə cavabdeh olan bütün hüquq-mühafizə işçiləri münasib qaydada, o cümlədən zərurət olduqda adekvat və məqsədəuyğun, daha az ölümcül silahlar və mühafizə vasitələri ilə təchiz olunmalıdır. İştirakçı dövlətlər bütün silahların, o cümlədən az ölümcül silahların ciddi müstəqil yoxlamadan keçməsini, onların təhkim olunduğu əməkdaşların xüsusi hazırlıq keçməsini təmin etməli, silahların təsirə məruz qalan şəxslərin hüquqlarına təsirini qiymətləndirməli və izləməlidir.[114] Hüquq-mühafizə orqanları müəyyən polis nəzarəti üsullarının, o cümlədən yeni texnologiyalardan istifadənin potensial olaraq ayrı-seçkiliyə yol verən təsirlərinə qarşı sayıq olmalı və onları aradan qaldırmalıdır.[115]

---

[110] CCPR/C/MAR/CO/6, bəndlər 45–46; və CCPR/C/BHR/CO/1, bənd 55.

[111] CCPR/C/KHM/CO/2, bənd 12; CCPR/C/GRC/CO/2, bənd 42; və CCPR/C/BGR/CO/4, bənd 38.

[112] CCPR/C/VEN/CO/4, bənd 14; və İnsan Hüquqları və Xalqların Hüquqları üzrə Afrika Komissiyası, *Afrikada toplantılara polis nəzarəti üzrə Rəhbər Qaydalar*, bənd 3.2.

[113] Hüquq-mühafizə işçilərinin Davranış Kodeksi, maddə 1.

[114] 36 nömrəli Ümumi Şərh, bənd 14. Həmçinin bax: BMT-nin "*Hüquq-mühafizə sistemində az ölümcül silahlardan istifadə haqqında İnsan hüquqları Təlimatı*", bölmə 4; və "Hüquq-mühafizə işçiləri tərəfindən güc tətbiqi və odlu silahlardan istifadə haqqında əsas prinsiplər", 2 və 3-cü prinsiplər.

[115] CCPR/C/GBR/CO/7, bənd 11; və A/HRC/44/24, bənd 32.

82. Müəyyən fərdlərin toplantıda iştirakının qarşısını məqsədli şəkildə almaq üçün saxlanması azadlığın əsassız şəkildə məhdudlaşdırılmasına bərabər ola bilər və bu, dinc toplaşmaq hüququna ziddir.[116] Bu, xüsusilə o zaman baş verir ki, saxlanma bir neçə saatdan artıq davam edir. Milli qanunvericilik bu cür saxlanmaya icazə verirsə, bu tədbir yalnız müstəsna hallarda istifadə edilməli,[117] mütləq tələb olunduğundan artıq davam etməməli və yalnız hakimiyyət sözügedən fərdlərin müəyyən bir toplantıda zorakılıq əməlləri ilə məşğul olmaq və ya bu əməllərə təhrik etmək niyyətinə dair sübuta malik olduqda, yaxud zorakılığın baş verməsi üçün atılacaq digər addımların qeyri-adekvat olacağı aşkar olduqda tətbiq edilməlidir.[118] Toplantıdan əvvəl və sonra, toplantı müddətində heç bir fərq qoymadan aparılan kütləvi həbs tədbirləri əsassız və qeyri-qanunidir.[119]

83. Toplantıda iştirak edən və ya iştirak etməyə hazırlaşanların üzərinə ciddi baxış və ya yüngül baxış keçirmək səlahiyyətləri ciddi cinayət və ya cinayət təhlükəsinə dair ağlabatan şübhə olduqda tətbiq edilməli və ayrı-seçkiliyə yol verən bir şəkildə istifadə edilməməlidir.[120] Hakimiyyətin sadəcə hər hansı bir fərdi dinc toplantı ilə əlaqələndirməsi onları dayandırıb üzərinə baxış keçirmək üçün ağlabatan əsaslar yaratmır.[121]

84. Hüquq-mühafizə işçilərinin iştirakçıların müəyyən hissəsini mühasirəyə aldığı sıxışdırma ("kettlinq") metodu yalnız həmin hissədən qaynaqlanan faktiki zorakılığı və ya qaçılmaz təhlükəni aradan qaldırmaq üçün zəruri və mütənasib olduqda istifadə edilə bilər. Sıxışdırma metodu ilə müqayisədə, spesifik fərdlərə yönələn zəruri hüquq-mühafizə tədbirlərinə üstünlük verilir. Sıxışdırma metodunun imkan daxilində yalnız zorakılıqla əlaqəli şəxslərə tətbiq edilməsinə və minimum tələb olunan müddətdə davam etməsinə xüsusi diqqət yetirilməlidir. Sıxışdırma heç bir fərq qoymadan və ya cəza məqsədilə tətbiq olunduqda dinc toplaşmaq

[116] CCPR/C/MKD/CO/3, bənd 19.
[117] Şəxsin azadlıqları və təhlükəsizliyi haqqında Ümumi Şərh № 35 (2014), bənd 15.
[118] Avropa İnsan Hüquqları Məhkəməsi, *S., V. və A. Danimarkaya qarşı* (ərizələr № 35553/12, 36678/12 və 36711/12), 22 Oktyabr 2018 -ci il tarixli qərar (Böyük Palata), bəndlər 77 və 127.
[119] CCPR/C/CAN/CO/6, bənd 15.
[120] CCPR/C/GBR/CO/7, bənd 11; və CCPR/C/USA/CO/4, bənd 7.
[121] A/HRC/31/66, bənd 43.

hüququnu pozur və əsassız həbs edilməmə və hərəkət azadlığı kimi digər hüquqları da poza bilər.[122]

85. Toplantı yalnız müstəsna hallarda dağıdıla bilər. Toplantı artıq dinc xarakterini itirdikdə və ya daha mütənasib tədbirlərlə (məsələn, spesifik şəxslərin həbs edilməsi) ağlabatan dərəcədə qarşısı alına bilməyən ciddi zorakılıq təhlükəsinin qaçılmaz olduğuna dair aydın dəlillər olduqda toplantının dağıdılması tədbirinə müraciət etmək olar. Bütün hallarda, hüquq-mühafizə orqanlarına şamil edilən güc tətbiqi ilə bağlı qaydalara ciddi şəkildə riayət edilməlidir. Toplantının dağıdılmasına göstəriş verilməsinə dair şərtlər milli qanunvericilikdə əksini tapmalıdır və yalnız lazımi səlahiyyətlərə malik şəxs dinc toplantının dağıdılmasına göstəriş verə bilər. Dinc keçirilməsinə baxmayaraq, gündəlik həyatın yüksək dərəcədə pozulmasına (məsələn, nəqliyyatın hərəkətinin uzun müddət dayandırılması) səbəb olan toplantı bir qayda olaraq o zaman dayandırıla bilər ki, bu pozulma "ciddi və davamlı"dır.[123]

86. Toplantının dağıdılması qərarı milli və beynəlxalq qanunvericiliyə uyğun olaraq qəbul edildikdə güc tətbiqindən çəkinmək lazımdır. Cari şəraitdə bu mümkün olmadıqda yalnız minimum tələb olunan güc tətbiq edilə bilər.[124] Imkan daxilində, hər hansı güc tətbiqi zorakılıq törədən və ya törətməklə hədələyən konkret fərd və ya qrupa yönəlməlidir. Yüngül dərəcədən daha artıq xəsarətə səbəb olacağı gözlənilən güc tətbiqi passiv şəkildə müqavimət göstərən fərd və ya qruplara qarşı istifadə edilməməlidir.[125]

87. Geniş sahəni əhatə edən az ölümcül silahlar, məsələn, gözyaşardıcı qaz və su kanonlarının təsirləri adətən fərq qoymur. Bu cür silahlardan istifadə edildikdə, riskləri (məsələn, izdihamlı qaçış və ya kənardakı şəxslərə zərər vurma) məhdudlaşdırmaq üçün bütün ağlabatan səylər

---

[122] Avropa İnsan Hüquqları Məhkəməsi, *Austin və digərləri Birləşmiş Krallığa qarşı* (ərizələr №. 39629/09, 40713/09; və 41008/09), 15 mart 2012-ci il tarixli qərar (Böyük Palata), bənd 68.

[123] A/HRC/31/66, bənd 62.

[124] "Hüquq-mühafizə işçiləri tərəfindən güc tətbiqi və odlu silahlardan istifadə haqqında Əsas Prinsiplər", prinsip 13 75.

[125] *BMT-nin "Hüquq-mühafizə sistemində daha az ölümcül silahlar haqqında İnsan Hüquqları Təlimatı"*, bənd 2.10.

göstərilməlidir. Bu cür silahlar şifahi xəbərdarlıqdan sonra, son tədbir kimi istifadə edilməli və toplantı iştirakçılarının dağılışmasına adekvat imkan yaradılmalıdır. Gözyaşardıcı qaz qapalı məkanlarda tətbiq edilməməlidir.[126]

88. Odlu silahlar toplantılara polis nəzarəti üçün adekvat vasitə deyil.[127] Onlar heç vaxt sadəcə toplantını dağıtmaq üçün istifadə edilməməlidir.[128] Beynəlxalq hüquqa əməl etmək üçün toplantıların kontekstində hüquq-mühafizə işçiləri tərəfindən odlu silahların hər hansı istifadəsi qaçılmaz ölüm və ya ciddi xəsarət təhlükəsini aradan qaldırmaq üçün ciddi şəkildə tələb olunan şərtlərdə konkret fərdlərə yönəlməlidir.[129] Bu cür silahların yaratdığı həyati təhlükəni nəzərə alaraq, bu minimum norma rezin örtüklü metal güllələrin atılmasına da şamil edilməlidir.[130] Hüquq-mühafizə işçiləri güc tətbiqinə hazırlaşdıqda və ya zorakılığın baş verəcəyi gözlənildikdə, hakimiyyət həm də adekvat tibbi vasitələrin də mövcudluğunu təmin etməlidir. Toplantıya polis nəzarəti zamanı heç bir fərq qoymadan atəş açmaq və ya odlu silahlardan tam avtomatik rejimdə istifadə heç vaxt qanuni deyil.[131]

89. Dövlət öz hüquq-mühafizə orqanlarının hərəkətlərinə və hərəkətsizliyinə görə cavabdehlik daşıyır. Pozuntuların qarşısını almaq üçün Dövlətlər toplantılar zamanı hüquq-mühafizə işçilərinin məsuliyyəti ənənəsini ardıcıl olaraq təşviq etməlidir. Səmərəli məsuliyyətliliyi gücləndirmək üçün, rəsmi geyim formasına malik hüquq-mühafizə işçiləri

---

[126] S/2009/693, əlavə, bənd 62; və *BMT-nin "Hüquq-mühafizə sistemində daha az ölümcül silahlar haqqında İnsan Hüquqları Təlimatı"*, bənd 7.3.7.

[127] İnsan Hüquqları və Xalqların Hüquqları üzrə Afrika Komissiyası, *Afrikada toplantılara polis nəzarəti üzrə Rəhbər Qaydalar*, bənd 21.2.4.

[128] "Hüquq-mühafizə işçiləri tərəfindən güc tətbiqi və odlu silahlardan istifadə haqqında Əsas Prinsiplər", prinsip 14

[129] 36 nömrəli Ümumi Şərh, bənd 12; və "Hüquq-mühafizə işçiləri tərəfindən güc tətbiqi və odlu silahlardan istifadə haqqında Əsas Prinsiplər", prinsip 9 və 14

[130] *BMT-nin "Hüquq-mühafizə sistemində daha az ölümcül silahlar haqqında İnsan Hüquqları Təlimatı"*, bənd 7.5.8.

[131] A/HRC/31/66, bənd 60 və 67 (e). Həmçinin bax: BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı və BMT-nin Narkomaniya və Cinayətkarlıq üzrə Ofisi, *Hüquq-mühafizə fəaliyyətində güc tətbiqi və odlu silahdan istifadə üzrə soraq kitabçası* (Nyu-York, BMT, 2017), səh. 96.

toplantılar zamanı hər zaman asan tanına bilən identifikasiya forması nümayiş etdirməlidir.[132]

90. Dövlətlər toplantılar çərçivəsində hüquq-mühafizə işçiləri tərəfindən qeyri-qanuni güc tətbiqi və ya cinsi və gender əsaslı zorakılıq daxil olmaqla, digər pozuntuların törədilməsinə dair hər hansı iddianı və ya ağlabatan şübhəni səmərəli, qərəzsiz və vaxtında araşdırmaq öhdəliyi daşıyır.[133] Məqsədli və etinasız hərəkət və ya hərəkətsizlik insan hüquqlarının pozuntusunu təşkil edə bilər. Pozuntulara cavabdeh olan fərdi vəzifəli şəxslər milli qanunvericiliyə və zərurət olduqda beynəlxalq hüquqa uyğun olaraq məsuliyyətə cəlb edilməli və zərər çəkmiş şəxslər səmərəli hüquqi müdafiə vasitələri ilə təmin edilməlidir.[134]

91. Hüquq-mühafizə işçiləri tərəfindən istifadə olunan güc tətbiqi bütünlüklə qeydə alınmalı və şəffaf bir hesabatda dərhal əksini tapmalıdır. Güc tətbiqi xəsarət və ya zərərə səbəb olduqda, hesabat hadisənin təfərrüatlarını, o cümlədən güc tətbiqinin səbəblərini, onun səmərəliliyini və nəticələrini təsvir etməklə onun zəruri və mütənasib olub-olmadığını müəyyən etməlidir.[135]

92. Toplantılarda mülki geyimli işçilərin yerləşdirilməsi cari şəraitdə qəti şəkildə zəruri olmalıdır və bu işçilər heç vaxt zorakılığa təhrik etməməlidir. Şəxslər üzərində baxış keçirməzdən, həbs etməzdən və ya güc tətbiqinə əl atmazdan əvvəl mülki geyimli işçilər özlərini müvafiq şəxslərə təqdim etməlidir.

93. Toplantı zamanı hüquq-mühafizə fəaliyyətinə görə cavabdehlik Dövlətin üzərinə düşür və o, yalnız müstəsna hallarda özəl təhlükəsizlik xidməti göstərən subyektlərə tapşırıqlar təyin edə bilər. Bu halda, həmin

---

[132] Avropa İnsan Hüquqları Məhkəməsi, *Hentschel və Stark* Almaniyaya qarşı(ərizə № 47274/15), 9 noyabr 2017-ci il tarixli qərar, bənd 91; və CRPD/C/TUN/CO/6, bənd 40.

[133] CCPR/C/COD/CO/4, bəndlər 43–44; və CCPR/C/BHR/CO/1, bənd 36. Həmçinin bax: *Potensial qeyri-qanuni ölümlərin araşdırılması haqqında Minnesota Protokolu* (BMT-nin nəşri, Seriya № E.17.XIV.3).

[134] Baş Assambleyanın 60/147 saylı qətnaməsi, Əlavə

[135] *BMT-nin "Hüquq-mühafizə sistemində daha az ölümcül silahlar haqqında İnsan Hüquqları Təlimatı"*, bəndlər 3.3–3.5.

subyektlərin davranışına görə məsuliyyət Dövlətin üzərində qalır.[136] Bu, milli qanunvericilik və zərurət olduqda beynəlxalq hüquqa əsasən özəl təhlükəsizlik xidmətləri göstərən subyektlərin məsuliyyətindən əlavədir.[137] Hakimiyyət milli qanunvericilikdə özəl təhlükəsizlik xidməti göstərən subyektlərin hüquq-mühafizə işindəki rolunu və səlahiyyətlərini müəyyən etməli və onlar tərəfindən güc tətbiqi və onların hazırlığı ciddi şəkildə tənzimlənməlidir.[138]

94. Hüquq-mühafizə işçiləri tərəfindən toplantılar zamanı videoyazı qurğularından, o cümlədən bədən kameralarından istifadə adekvat düzgün mühakimə ilə istifadə edildikdə məsuliyyətliliyin təmin edilməsində müsbət rol oynaya bilər. Bununla belə, hakimiyyət bu cihazların istifadəsinin şəxsi həyatın toxunulmazlığı ilə bağlı beynəlxalq standartlara uyğun olması və toplantıda iştiraka qarşı çəkindirici təsir göstərməməsini təmin etmək üçün aydın və ictimaiyyət üçün əlçatan təlimatlara malik olmalıdır.[139] İştirakçılar, jurnalistlər və monitorinq aparan şəxslər hüquq-mühafizə işçilərini videolentə almaq hüququna malikdir.[140]

95. Dövlət toplantı zamanı istifadə etdiyi hər hansı məsafədən idarə olunan silah sistemlərinə görə tam cavabdehlik daşıyır. Güc tətbiqinin bu cür metodları gərginliyi artıra bilər və yalnız böyük ehtiyatlılıqla istifadə edilməlidir. Qurulduqdan sonra əhəmiyyətli insan müdaxiləsi olmadan toplantı iştirakçılarına qarşı ölümcül gücün tətbiqinə imkan yaradan tam avtonom idarə olunan silah sistemləri heç bir zaman toplantılarda hüquq-mühafizə məqsədilə istifadə edilməməlidir.[141]

---

136 36 nömrəli Ümumi Şərh, bənd 15.
137 *Özəl təhlükəsizlik xidməti subyektləri üçün Beynəlxalq Davranış Kodeksi* (2010).
138 *BMT-nin "Hüquq-mühafizə sistemində daha az ölümcül silahlar haqqında İnsan Hüquqları Təlimatı"*, bənd 3.2.
139 CCPR/C/CHN-HKG/CO/3, bənd 10; və CCPR/C/CHN-MAC/CO/1, bənd 16.
140 A/HRC/31/66, bənd 71.
141 eyni yer, bənd 67 (f).

## VII. Fövqəladə vəziyyətlər və silahlı münaqişələr zamanı toplaşmaq

96. Dinc toplaşmaq hüququ Paktın 4-cü maddəsinin 2-ci bəndinə əsasən geri çəkilə bilməyən hüquqlar sırasında olmasa da, potensial olaraq yığıncaqlarla əlaqəli ola biləcək digər hüquqlar, məsələn, 6, 7 və 18-ci maddələrdə nəzərdə tutulan hüquqlardan geri çəkilməyə yol verilmir. İştirakçı dövlətlər 21-ci maddəyə əsasən məhdudiyyətlər tətbiq etməklə öz məqsədlərinə çata bilərsə, dinc toplaşmaq hüququndan geri çəkilməyə səy göstərməməlidir.[142] Dövlətlər məsələn, zorakılıq aktları ilə müşayiət olunan kütləvi nümayişlərə cavab olaraq Paktdan kənara çıxarsa, onlar sadəcə bu cür vəziyyətin vətəndaşların həyatına təhdid yaratdığını deyil, həm də Pakt üzrə öhdəliklərdən kənara çıxan bütün tədbirlərin vəziyyətin çətinlikləri ilə əlaqədar qəti şəkildə tələb olunduğunu və 4-cü maddədəki şərtlərə cavab verdiyini əsaslandıra bilməlidir.[143]

97. Silahlı münaqişə vəziyyətində, dinc toplantılar zamanı güc tətbiqi hüquq-mühafizə fəaliyyətini tənzimləyən qaydalarla tənzimlənir və Paktın müddəaları tətbiq edilməyə davam edir.[144] Toplantıda mülki şəxslər ölümcül güc tətbiqinin hədəfi olmaqdan qorunurlar, bu şərtlə ki və nə qədər ki, onlar döyüş əməliyyatlarında (bu terminin beynəlxalq humanitar hüquq çərçivəsində tərifi əsas götürülməklə) iştirak etmirlər. Əks halda, onlar beynəlxalq hüquq çərçivəsində başqa formada hücumdan qorunmadıqları həddədək hədəf ola bilərlər. Tətbiq olunan beynəlxalq humanitar hüquq çərçivəsində hər hansı güc tətbiqi hücum zamanı fərqləndirmə və ehtiyatlılıq tədbirləri, mütənasiblik, hərbi zərurət və humanistlik prinsipləri və qaydalarına uyğun olmalıdır. Güc tətbiqi ilə bağlı bütün qərarlarda toplantı iştirakçılarının və geniş ictimaiyyətin təhlükəsizliyi və müdafiəsi nəzərdən keçirilməli mühüm amil olmalıdır.

---

[142] “Fövqəladə vəziyyət zamanı Paktin müddəalarından kənarlaşma haqqında” Ümumi Şərh № 29 (2001), bənd 5. Həmçinin bax: CCPR/C/128/2, bənd 2 (c).

[143] 29 nömrəli Ümumi Şərh, bəndlər 5–9.

[144] 36 nömrəli Ümumi Şərh, bənd 64.

## VIII. Paktın 21-ci maddəsi və digər müddəaları ilə digər hüquqi rejimlər arasındakı əlaqə

98. Dinc toplaşmaq hüququnun tam müdafiəsi bir sıra hüquqların müdafiəsindən asılıdır. Dövlət vəzifəli şəxslər tərəfindən toplantı zamanı lüzumsuz və qeyri-mütənasib güc tətbiqi və ya digər qanunsuz davranış paktın 6, 7 və 9-cu maddələrini poza bilər.[145] Dinc toplantı iştirakçılarının qeyri-qanuni güc tətbiqinə və ya mülki əhaliyə qarşı yönələn geniş miqyaslı və sistemli hücumun bir hissəsini təşkil edən hərəkətə məruz qaldığı ekstremal vəziyyət həm də digər müvafiq meyarlar da qarşılandıqda, bəşəriyyətə qarşı cinayət hesab edilə bilər.[146]

99. İnsanların dinc toplantılarda, yürüşlərdə və ya digər hərəkətli toplantılarda iştirak etmək üçün səyahət etmək, o cümlədən ölkədən çıxmaq (maddə 12 (2)) hüququnun məhdudlaşdırılması onların hərəkət azadlığını (maddə 12 (1)) poza bilər. Toplaşmaq hüquqlarının həyata keçirilməsini məhdudlaşdıran rəsmi qərarlar ədalətli və açıq dinləmə tələblərinə cavab verən proses çərçivəsində hüquqi baxımdan mübahisələndirilməyə açıq olmalıdır (maddə 14 (1)).[147] Toplantılara cəlb olunan şəxslərin müşahidə olunması və digər məlumat toplama işləri onların şəxsi həyatın toxunulmazlığı hüququnu poza bilər (maddə 17). Dini toplantılar da şəxsin dinini və ya inanclarını nümayiş etdirmək azadlığı çərçivəsində qoruna bilər (maddə 18).[148] Dinc toplaşmaq hüququ ifadə azadlığının nümayiş etdirilməsi çərçivəsindən daha genişdir (maddə 19 (2)); O, çox zaman özündə fikirlərin ifadə edilməsi elementini ehtiva edir və bu iki hüququn qəbul edilməsi və məqbul məhdudiyyətlərin tətbiqi ilə bağlı əsaslar bir çox formalarda üst-üstə düşür. Dövlət orqanlarında olan məlumatları əldə etmək azadlığı (maddə 19(2)) ictimaiyyətin toplantılara tətbiq olunan hüquqi və inzibati çərçivə barədə məlumatlı olmaq

---

145 CCPR/C/ISR/CO/3, bənd 9; CCPR/C/UZB/CO/3, bənd 8; *Olmedo Paraqvaya qarşı* (CCPR/C/104/D/1828/2008), bənd 7.5; və *Benítez Gamarra Paraqvaya qarşı* (CCPR/C/104/D/1829/2008), bənd 7.4.

146 Beynəlxalq Cinayət Məhkəməsinin Roma Əsasnaməsi, maddə 7.

147 *Evrezov və digərləri. Belarusa qarşı*, bəndlər 3.3 və 8.9.

148 22 nömrəli Ümumi Şərh, bənd 8.

qabiliyyətinin əsasını təşkil edir və onlara dövlət vəzifəli şəxsləri hesabat verməyə sövq etmək imkanı verir.

100. Birləşmək azadlığı (maddə 22) da kollektiv fəaliyyəti qoruyur və bu hüquqa tətbiq olunan məhdudiyyətlər çox zaman dinc toplaşmaq hüququna təsir edir. Siyasi iştirak hüququ (maddə 25) dinc toplaşmaq hüququ ilə sıx əlaqəlidir və müvafiq hallarda məhdudiyyətlər 21 və 25-ci maddələrdə müəyyən edilən şərtlərə əsasən əsaslandırılmalıdır.[149] Ayrı-seçkiliyə məruz qalmamaq hüququ iştirakçıları toplantılar kontekstində ayrı-seçkiliyə yol verən tədbirlərdən qoruyur (maddələr 1(1), 24 və 26).

101. Dinc toplantılarda iştirak, digərlərinin hüquq və azadlıqlarını qorumaq üçün 21-ci maddəyə uyğun olaraq məhdudlaşdırıla bilər.

102. Dinc toplaşmaq hüququ məxsusi dəyərə malikdir. Bundan əlavə, bu hüquq çox vaxt digər insan hüquqlarının və beynəlxalq hüququnun digər norma və prinsiplərinin icrasını gücləndirmək məqsədilə istifadə edilir. Bu hallarda dinc toplaşmaq hüququnun hüquqi əsaslandırması həm də icrasına töhfə verdiyi digər geniş spektrli hüquq, norma və prinsiplərin əhəmiyyətinə əsaslanır.

[149] *Sudalenko Belarusa qarşı*, bənd 8.6